QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 063 (6263) 13 aprel 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Pakistanlı ekspert: BMT Ermənistanın törətdiyi hərbi cinayətləri diqqətə almalıdır

Bax 10




"Bura ruhlar məkanıdır, ermənilər burada hər şeyi tamamilə məhv ediblər". Bunu "Report"a Ağdama səfər edən İslamabad Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Əkrəm deyib. "Hər şey - Ağdam məscidi, muzey məhv edilib. Beynəlxalq ictimaiyyət bunu görməlidir. BMT Ermənistanın son 27 ildə törətdiyi hərbi cinayətləri...

## "2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim"

Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib



Bax 2

Maltepe Universitetinin professoru:

## Azərbaycan həm iqtisadi, həm də hərbi güc baxımından bölgənin lider ölkəsidir



İkinci Qarabağ müharibəsindən sonra yenidən Azərbaycanda olduğum üçün çox məmnunam. Azərbaycanın doğma torpaqlarını işğaldan azad etməsi bizi sevindirdi. Uzun illərdir bu Qələbənin əldə olunması üçün səy göstərən Azərbaycana Türkiyə böyük siyasi və mənəvi dəstək göstərdi. Türkiyə xalqı hər zaman Azərbaycanla bağlı məsələlərdə 100 faiz dəstək verir. Bu dəfə də belə oldu. AZƏRTAC xəbər verir ki, bu fikirləri ADA Universitetində jurnalistlərə açıqlamasında İstanbul şəhərindəki...

Bax 9

## Niyə xərçəng oluruq: genetik və ya ətraf mühit?

Bax 13



"Türkiyə və dünyadakı ölüm səbəbləri arasında ikinci sırada xərçəng xəstəliyi yer alır". SİA-nın verdiyi məlumata görə, bunu türkiyəli həkim Nurten Elkin deyib.

Onun sözlərinə görə, bu gün xərçəngin yüzdə otuz və əllisinin qarşısını...

## "Vostok"dan "Azerspace"dək yarım əsrlik kosmik yol

İnsanın kosmosa çıxmaq həvəsi tarix boyu olub. Bu arzunu reallaşdırmaq imkanı isə 20-ci əsrdə meydana gəldi. SSRİ və ABŞ arasında 50-ci illərdə kosmosun fəthi sahəsində gedən gərgin mübarizə başlamışdı. Kosmik yarış soyuq müharibə dövründə SSRİ və ABŞ arasında mədəni, texnoloji və ideoloji qarşıdurmanın vacib bir hissəsinə çevrilmişdi. Və bu yarış da...




Bax 15

## Müsavatçı Əli Kərimlini və Cəmil Həsənlini dərhal istefaya çağırdı

Bax 14



Sözdə Azərbaycanın "ana müxalifət liderləri" qismində özlərini zorən ictimai rəyə sırıyan iki fərdin - AXCP sədri Əli Kərimlinin və "Milli Şura"nın sədri Cəmil Həsənlinin elə müxalifət cinahında yer alan digər müxalifət təmsilçiləri tərəfindən dışlanması prosesinə start verilib. Əbəs deyil ki, son zamanlar bir-birini daha...

### Zatulinin ermənilərdən aldığı "tula payı"



Bax 11

### Rusiya Türkiyəyə çarter reyslərini dayandırdı



Bax 10

### Avropa çempionatında 10 cüdoçumuz iştirak edəcək



Bax 16

# “2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim”

*Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra - noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu deyib. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edildi.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun “Dəmir yumruq” əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.



> 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və bu fürsətdən istifadə etdilər



Lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev dedi:

-Birinci Qarabağ müharibəsindən sonra ermənilər azərbaycanlıların şəxsi maşınlarının nömrələrini götürüb işğal edilmiş torpaqlarda nümayiş etdirirdilər. Bir lövhə düzəltmişdilər, göstərsinlər ki, azərbaycanlılar öz dədə-baba torpaqlarından didərgin salınıb.

Əslində, bu hərəkət Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü idi. Çünki mülki vətəndaşlar öz əmlakını qoyub, bəziləri ayaqyalın işğal edilmiş torpaqlardan çıxmağa məcbur olmuşdular. Ermənilər bu lövhəni xarici turistlərə nümayiş etdirərək öz ordusunun gücünü göstərməyə, mif yaratmağa çalışırdılar ki, guya Ermənistanın məğlubedilməz ordusu var. Azərbaycanlılar isə şəxsi maşınlarını qoyub, öz torpaqlarından çıxmışdılar. Biz bunu unutmamışıq və bu lövhə erməni fərariliyinin təzahürüdür. Çünki bu nömrələr hərbi yük maşınlarının nömrələridir. 522 hərbi yük maşını Azərbaycan Ordusu tərəfindən məhv edilib və ya qənimət kimi götürülmüşdür. Hələ müharibənin getdiyi dövrdə mən göstəriş vermişdim ki, nömrələr yığılsın, saxlanılsın, gün gələcək biz bu nömrələri nümayiş etdirəcəyik.

Dekabrın 10-da keçirilmiş hərbi paradda bu lövhə nümayiş etdirildi. Azadlıq meydanında, bütün xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha göstərildi. Bu gün Hərbi Qənimətlər Parkında bu lövhə nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Buraya gələn hər bir insan - Azərbaycan vətəndaşı, ölkəmizə gələcək qonaqlar bunu görəcəklər. Ermənilər də bunu görsünlər. Görsünlər ki, onların bəd əməlləri cavabsız qalmadı. Budur, onlara verilən cavab. Qarabağ Azərbaycandır!

X X X

Xatırladaq ki, 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış “İskəndər M” raketinin qalıqları da var.

“İsgəndər M” raketinin qalıqlarına baxan Prezident İlham Əliyev dedi:

-Şuşanı bax, bu “İsgəndər-M” raketləri ilə ermənilər atəşə tutmuşdular. Haradandır bu raketlər Ermənistan ordusunda? Bu raketlər olmamalı idi. Artıq bu, əyani sübutdur. Ermənistanın hərbi cinayətinin sübutudur və biz cavab istəyirik. Bu ölümcül silah Ermənistanın əlinə necə düşdü? Hələ ki, cavab ala bilməmişik. Amma alacağıq. Hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan “İsgəndər-M” raketləri ilə məhv etməyə çalışırdı. Şuşanı biz azad edəndən sonra bundan istifadə etdilər. Bizdə kifayət qədər məlumat var. Sadəcə olaraq, biz rəsmi açıqlama gözləyirik. Hər kəs gəlib bunu görəcək. Bu, erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutudur.

Ardı Səh. 3

# "2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim"

*Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*



Əvvəli Səh. 2

X X X

Diqqətə çatdıraq ki, nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir! Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatlar da bu sıraya daxil etmək olar.

Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən - Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Parkın ərazisindəki hər bir element demək olar nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə atəş nöqtəsini müəyyən etmək daha çətin olurdu, amma mümkünsüz deyildi.

Prezident İlham Əliyev bütün bu mühəndis-maneə sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış oldu.

Qeyd edək ki, Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

X X X

Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Salam cənab zabitlər.

-Hərbçilər: Salam.

-Prezident İlham Əliyev: Əyləşin.

Əziz hərbçilər, bu gün sizə dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Bu mükafatlar müharibədən sonra mənim təşəbbüsümlə təsis edilmişdir. Mükafatların adlarını da özüm vermişəm - "Vətən müharibəsi qəhrəmanı" ulduzu, "Zəfər" və "Qarabağ" ordenləri yeni təsis edilmiş yüksək hərbi mükafatlardır.

Xahiş edirəm ki, təntənəli mərasimimizin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əyləşin. Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq.

Ardı Səh. 4

Prezident: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək"





# "2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim"

*Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*

Əvvəli Səh. 3

Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq.

Bugünkü təntənəli mərasimin yeri təsadüfən seçilmədi. Biz bu mərasimi Yeni Bulvarda keçiririk. Yeni Bulvar mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl salınmışdır. Yeni Bulvarın uzunluğu 12 kilometrdir. Müqayisə üçün deyə bilərəm ki, köhnə bulvarın uzunluğu cəmi 3 kilometrdir. Bu bulvarın salınması dövlətimizin qüdrətini göstərirdi, xalqa olan qayğını göstərirdi. Bu, yenilik idi, inkişaf idi, bu, bizim gücümüzün təzahürü idi. İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir.



> 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi

da sırf ermənipərəst bir adam idi. Faktiki olaraq bizim problemlərimiz o vaxtdan başlamışdır. O vaxt Azərbaycana qarşı çirkin informasiya kampaniyası aparılırdı. Bütün bunları yaşlı nəsil yaxşı xatırlayır.

Müstəqillik əldə olunandan sonra nələr baş verdi? Müstəqillikdən dörd ay sonra Xocalı soyqırımı törədildi. Ermənistan və Sovet İttifaqının 366-cı alayı hərbi cinayət törətdi, vəhşilik törətdi. Dinc insanları qətlə yetirdi. Onların arasında uşaqlar, qocalar, qadınlar vardı. Xocalı soyqırımı bu gün dünya tərəfindən tanınır. Ondan çox ölkə bu soyqırımını rəsmən tanıyıbdır. Xocalı soyqırımından üç ay keçəndən sonra Şuşa və Laçın işğal altına düşdü.

Məhz o vaxt faktiki olaraq hakimiyyətə gəlmiş və bu gəlişini rəsmiləşdirmək istəyən AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa və Laçın işğal altına düşdü. Çünki onlar üçün hakimiyyətə gəlmək hər şeydən vacib idi. O vaxt müdafiə naziri onların adamı idi, hansı ki, söz vermişdi, əgər Şuşa əldən getsə, öz başına güllə çaxacaq. Bu günə qədər tula kimi orada-burada sülənir. Faktiki olaraq hakimiyyət Xalq Cəbhəsi-Müsavatın əlində idi. Onlar Şuşa və Laçını ermənilərə təhvil verərkən Bakıdakı hakimiyyəti yıxmaq istəmişdilər və buna nail ol-





Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq.

Biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Ona görə bu təntənəli mərasimin burada keçirilməsində böyük rəmzi məna var. Yenilik, inkişaf, güc - bunlar əsas amillərdir. Bir də Vətən sevgisi. Çünki bax, bu bulvarın ərsəyə gəlməsində, bunun təməlində Vətən sevgisidir. Çünki bu zona əvvəllər sənaye zonası idi və burada bir çox köhnəlmiş, sıradan çıxmış müəssisələr fəaliyyət göstərirdi. Bütün bu ərazi təmizləndi, yeni bulvar salındı. Sağ tərəfdə olan boş yer də təmizlənib sərəncama götürülüb.

Bu mərasimin burada keçirilməsinin digər səbəbi burada yerləşən Hərbi Qənimətlər Parkıdır. Bu Hərbi Qənimətlər Parkının açılışını bu gün etdim. Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür.

Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu manerələri dəf edərək düşməni məğlub etdilər.

Otuz il ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmırdı. Ancaq bizim problemlərimiz ondan daha əvvəl başlamışdı, daha dəqiq desəm, 1987-ci ildə. Çünki 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə ermənilərin əlinə fürsət düşdü və onlar bu fürsətdən istifadə etdilər. Heydər Əliyevin istefasından iki həftə keçməmiş bir erməni millətçisi - Qorbaçovun müşaviri, onun sağ əli Aqanbekyan hələ 1987-ci ildə Fransada olarkən Fransa qəzetinə müsahibə verərək demişdir ki, Dağlıq Qarabağ Ermənistana birləşməlidir. Heydər Əliyevin dövründə heç vaxt buna cürət edə bilməzdilər. Ona görə dünya erməniliyinin əsas hədəfi Heydər Əliyev idi. Çünki bilirdilər, o, nə qədər vəzifədədir, heç vaxt imkan verməz ki, erməni millətçiliyi baş qaldırsın. Necə ki, 1970-1980-ci illərdə Azərbaycana rəhbərliyi dövründə bütün separatçı meyillərin qarşısı elə yerindəcə alınırdı. İndi tarixə baxın, sanki heç nə dəyişilməyib. Sovet vətəndaşı, özünü akademik sayan Fransada bu açıqlamanı verir və artıq bu mövzu ortalığa atılır. Biz yaxşı xatırlayırıq ondan sonra hansı proseslər baş vermişdi. Faktiki olaraq Dağlıq Qarabağı Azərbaycandan ayırmışdılar. Xüsusi idarəetmə komitəsi yaradılmışdı. Moskvadan bir adam göndərilmişdi. O dular. Ondan bir ay keçəndən sonra hərbi çevriliş edərək, parlament binasını zəbt edərək hakimiyyəti devirdilər və qanunsuz olaraq hakimiyyətə gəldilər. Bu, onların böyük xəyanətidir. Ondan sonra nələr baş verdi? Ondan sonra ölkə faktiki olaraq idarəolunmaz vəziyyətə düşmüşdü. Xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürürdü. Kəndlər işğal altına düşürdü, Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Ermənistana benzin satırdı. Özləri də bunu etiraf etmişdilər. Bu videomateriallar, kadrlar var. Özləri də etiraf etmişdilər ki, bu xəyanətin içindədirlər. Ordunu gücləndirmək, ordumuza dəstək vermək əvəzinə, ancaq öz hakimiyyətini möhkəmləndirirdilər. Heydər Əliyev imkan vermədi ki, ermənilər blokada şəraitində olan Naxçıvanı işğal altına salsınlar, halbuki dəfələrlə belə cəhdlər olub. Orada sərhəddə gedən şiddətli döyüşlərdə bizim hərbçilərimiz və mülki vətəndaşlar sinəsini qabağa verərək öz torpaqlarını müdafiə ediblər, məhz Heydər Əliyev amili hesabına. Onlar isə buradan Naxçıvana hərbi desant göndərirdilər ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. O vaxt Daxili Qoşunların komandanı, bu gün xaricdə gizlənən bir tula, oraya desant göndərirdi.

Ardı Səh. 5

# “2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim”

*Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*





Əvvəli Səh. 4

> Hərbi Qənimətlər Parkına gələn hər bir insan ordumuzun gücünü, iradəmizi görəcək

Torpaqlar əldən gedir, ermənilər kəndlərimizi zəbt edir, onlar isə Naxçıvanda Heydər Əliyevə qarşı mübarizə aparırlar. Bunlar Xalq Cəbhəsi-Müsavat xəyanətkarlarının əməlləridir. Ancaq qorxdular, heç burunlarını soxa bilmədilər. Çünki xalq qalxdı, dedilər ki, gələn kimi sizi burada məhv edəcəyik. Vətəndaş müharibəsinə start verdilər, Gəncəni bombaladılar, Azərbaycan əsgərlərini əsir götürdülər, torpaqlar işğal altına düşə-düşə. Bu, xəyanət deyil, bəs nədir?! 1993-cü ilin aprelində Kəlbəcəri düşmənə verdilər. Ondan sonra təşvişə düşdülər, qorxuya düşdülər, depressiyaya düşdülər. Bu günə qədər də bu depressiyadan çıxa bilmirlər. Öz canlarını qurtarmaq üçün o vaxt məcbur olub Heydər Əliyevə müraciət etdilər ki, onları burada, Prezident Aparatının qarşısında asmasınlar. Onların dar ağacı hazır idi. Azərbaycan xalqı bunlara cəmi bir il dözdü. Amma görün, bir il ərzində nə qədər böyük ziyan vurdular - torpaqlarımız əldən getdi, ordunu məhv etdilər, vətəndaş müharibəsinə start verdilər, qardaş qanını tökdülər. Ona görə, mən deyəndə ki, bunlar xəyanətkardırlar, satqındırlar, düşməndirlər, bax, buna əsaslanaraq deyirəm. Tarixi faktlara əsaslanaraq deyirəm. Onların mənfur xisləti bu gün də özünü büruzə verir. İkinci Qarabağ müharibəsi zamanında da altdan-altdan bizim ordumuza şər ataraq, haqq işimizə şər ataraq düşmənin dəyirmanına su tökdülər. Ona görə bu tarixi bilmədən bugünkü reallığa düzgün qiymət vermək mümkün deyil.

Məhz Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoydu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdi, sabitlik, qaydaqanun yaradıldı və nizami ordu quruculuğu başlandı.

Mən 2003-cü ildə hakimiyyətə gələrək, Prezident vəzifəsinə başlayaraq söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim. Azərbaycanın ərazi bütövlüyü 17 il ərzində qorundu. Düşmənin bütün cəhdlərinə baxmayaraq, hər hansı bir güzəşt edilmədi. Halbuki təzyiqlər də olmuşdur, təhdidlər də olmuşdur. Mənə qarşı çevriliş cəhdləri olmuşdur. 2003-cü ildə Azadlıq meydanında AXC-Müsavat cütlüyünün törtöküntüləri hərbi çevriliş etmək istəmişdilər, alınmadı, xalq dəstəkləmədi. 2005-ci ildə Azərbaycanda “narıncı inqilab” təşkil etmək istəmişdilər. Artıq başlarına narıncı bantlar bağlamışdılar. Narıncı çadırlar gətirilmişdi. Nə idi məqsəd? Məqsəd satqınları hakimiyyətə gətirmək, onların əli ilə Qarabağı ermənilərə vermək və Azərbaycana rəhbərlik etmək. Mən bunu qoymurdum. Ona görə bəzi xarici paytaxtlarda qərar verildi ki, İlham Əliyevi devirməliyik. O vaxt da “narıncı inqilab” dəbi var idi. Orada-burada inqilablar baş verirdi. Bu inqilabların axırı nə oldu, indi hər kəs görür. Ölkələr bərbad vəziyyətdədir, böhrandan çıxa bilmirlər, artıq 15-17 ildir böhran hökm sürür. O ölkələrin böhrandan çıxma ehtimalı çox aşağıdır. Yenə də xalq arxamda durdu. Yenə də xalq müstəqil siyasəti dəstəklədi. Bütün təzyiqlərə, bütün cəhdlərə, - ondan sonra da cəhdlər olmuşdu, - baxmayaraq, Qarabağ məsələsində bir faiz güzəştə getmədim. Bunun əksinə, 2003-cü ildə Prezident seçiləndən sonra demişdim ki, artıq nə danışılıb, qalsın kənarda. Mən bunu tanımıram. Sıfırdan başlamalıyıq danışıqlara, sıfırdan. Bütün təzyiqlərə baxmayaraq, buna nail oldum. Məhz bunun nəticəsində Madrid prinsipləri ortalığa çıxdı. Bəli, Madrid prinsipləri bizi tam qane etmirdi. Mən bunu gizlətmirəm. Ancaq Madrid prinsiplərinin əsasında bizim torpaqlarımızın azad edilməsi nəzərdə tutulurdu. Mən dəfələrlə demişdim ki, heç vaxt ölkəmizin ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, olmayacaq və həyat bunu təsdiqlədi. Mənim o vaxt danışıqların uğurla başa çatmasına inamım var idi. Çünki mən bu vəzifəyə təzə seçilmişdim, hələ böyük siyasətin, riyakarlığın nə dərəcədə geniş vüsət almasından xəbərsiz idim. Hesab edirdim ki, kim, hansı tərəfmüqabil nəyi deyirsə, o da həqiqətdir. Sonra anladım ki, bütün bu illər ərzində bizi aldatmağa çalışmışlar. Məsələni həll etmək yox, dondurmaq istəmişdilər. Bu məsələ ilə bilavasitə məşğul olan beynəlxalq qurumlar bu torpaqları erməni tapdağının altında daim saxlamaq istəmişdilər. Onu sonra anladım.

Ancaq bununla paralel olaraq danışıqlar apararaq, eyni zamanda, hazırlıq işləri də gedirdi. Mən bunu gizlətmirdim. Dəfələrlə demişdim ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, biz bunu hərbi yolla həll edəcəyik. Nəticədə də belə oldu. Nə demişəmsə, onu da etmişik. Bütün bu illər ərzində demişdim ki, bizim torpağımızda heç vaxt ikinci erməni dövləti yaradıla bilməz. Demişdim ki, birinci erməni dövləti bizim tarixi torpağımızda yaradılıbdır. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri də İrəvanı Ermənistana vermək, paytaxt düzəltmək idi. Mən bunu qınamışam. Demişəm ki, bu xəyanət idi, satqınlıq idi, bağışlanmazdır. Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi malalamamalıyıq, bilməliyik tarixi. Bilməliyik, 1918-1920-ci illərdə ki, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi, müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Halbuki buna o vaxt İrəvandan olan nümayəndələr etiraz edirdilər. Onların səsinə fikir verən olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generallar burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar. Biz elə saxta tarixin girovuna çevrilmişik. Hər şeyi bilməliyik - kimin tarixdə hansı rolu var və nəticə nədən ibarətdir.

Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq. Buna nail olmaq üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

İkinci Qarabağ müharibəsinə hazırlaşmalı idik və hazırlaşdıq. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi. Mən bu barədə əvvəlki illərdə danışarkən bəziləri hesab edirdi ki, bəli, bunlar qəbul olundu, amma bunun nəticəsi yoxdur. Bu gün gördük bunun nəticəsini, hər kəs gördü bunun nəticəsini. BMT Təhlükəsizlik Şurasının qətnamələri var idi, ondan başqa ciddi bir sənəd yox idi. BMT Baş Assambleyasının qərarı, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti. Avropa Şurası Parlament Assambleyası həmişə bizə düşmənçilik mövqeyi sərgiləyir, hətta onlar da məcbur olub ərazi bütövlüyümüzə dəstək nümayiş etdiriblər. Bütün bunlar siyasi və hüquqi baza yaradıbdır. Əgər bu, olmasaydı, müharibə dövründə bizə qarşı Minsk qrupuna həmsədrlik edən ölkələrin BMT-dəki təşəbbüsü nəticə verə bilərdi. Bunu da hər kəs bilsin, bir çoxları bilmir. Müharibə gedə-gedə bizə qarşı sanksiyalar tətbiq etmək istəyirdilər. Biz öz torpağımızda vuruşuruq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik. Bizə qarşı sanksiyalar tətbiq etmək ədalətsizlikdir, vicdansızlıqdır. Kim idi bunları təşkil edən? Minsk qrupuna həmsədrlik edən ölkələr. Kim bunun qarşısını aldı? Bizə dost olan ölkələr, Qoşulmama Hərəkatına üzv olan ölkələr. Çünki biz Qoşulmama Hərəkatının sədri kimi özümüzü ləyaqətlə aparmışıq, bu ölkələrə kömək etmişik, həm maliyyə yardımı göstərmişik, həm də humanitar yardım. COVID ilə bağlı 30-dan çox ölkəyə humanitar, maliyyə yardımı göstərmişik. Onların maraqlarını müdafiə etmişik və onlar da, öz növbəsində, bizə dəstək verdilər. Düzdür, hər hansı bir qətnamə qəbul olunsaydı belə, bizi dayandıra bilməzdi. Heç kim və heç nə bizi dayandıra bilməzdi. Mən müharibə dövründə dəfələrlə xalqa müraciət edərək demişdim, rədd olsun düşmən bizim torpağımızdan, mən müharibəni dayandırıram. Ona görə beynəlxalq müstəvidə hazırlıq aparılmalı idi. İqtisadi sahədə hazırlıq aparılmalı idi. Əgər biz hansısa bir ölkədən və yaxud da ki, hansısa beynəlxalq maliyyə qurumundan asılı olsaydıq, müharibəni apara bilərdikmi? Əlbəttə ki, yox. Bizə min cür təzyiq edəcəkdilər, bizi təhdid edəcəkdilər, imkanlarımızı kəsəcəkdilər.

İqtisadi müstəqillik əsas məsələlərdən biri idi. Buna da nail olduq. Enerji müstəqilliyinə nail olduq. Tarixi layihələri həyata keçirdik. 2006-2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər, o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı. Vəsait yoxdursa, silah da olmayacaqdı. Silahları bizə heç kim bağışlamayıb. Ermənistandan fərqli olaraq 5 milyard dolları heç kim hədiyyə eləməyib.

Ardı Səh. 6

# “2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim”

## *Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*

**Əvvəli Səh. 5**

Onların məhv edilmiş və qənimət götürülmüş silahlarının dəyəri 5 milyard dollardır. Biz pulla almışıq, iqtisadi müstəqillik olmasaydı, necə ala bilərdik? Müharibəni necə apara bilərdik? Torpaqlar ermənınin tapdağı altında əbədi qala bilərdi. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi. Mən nə qədər təzyiqlə üzləşdim - yox, bu xətt Ermənistan üzərindən keçməlidir, dəmir yolu Ermənistan üzərindən keçməlidir. Bakı-Tbilisi-Qars inşa edilməməlidir, biz buna kredit verməyəcəyik. Dedim, vermirsən, cəhənnəmə vermə. Mən özüm Gürcüstana 725 milyon dollar kredit vermişəm. Nail olduq, bunu tikdik, Ermənistan dalana çevrildi. Bu, özlüyündə ona gətirib çıxardı ki, Ermənistandan kütləvi köç başlanmışdı. Köç olan kimi bazar daralır. Bazar daraldıqca, heç kim investisiya qoymaz. Adam gərək dəli olsun ki, Ermənistana investisiya qoysun, həm o illərdə, xüsusilə indi. Beləliklə, Ermənistanı iqtisadi cəhətdən çökdürmək əsas vəzifələrdən biri idi, mən bunu gizlətmirdim və buna nail olduq.







Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdən biridir. İkinci Qarabağ müharibəsi göstərdi ki, bu sahədə də böyük uğurlar əldə edilib. Əlbəttə ki, ilk növbədə, ordu quruculuğu. Ordunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, peşəkarlığı, xidmət şəraiti, hərbçilərin məişət şəraiti yaxşılaşdırıldı. Elə güclü ordu yaratmışıq ki, beynəlxalq reytinqlərdə həmişə 50-ci yerlərdə idik, indi müharibədən sonra təbii ki, daha da yüksək yerlərə qalxacağıq. Müharibə dövründə gücümüzü göstərdik.

Biz Ermənistana şans verirdik. Hələ 2016-cı ildə Aprel döyüşləri zamanı şans verdik. Ovaxtkı xunta başçısı Sarkisyan acı məğlubiyyətdən sonra mənə torpaqları bizə qaytarmaq sözü vermişdi. O vaxt Aprel döyüşləri gedə-gedə onlar gecə-gündüz Moskvaya, Rusiyanın Baş qərargah rəisinə zəng edirdilər ki, Azərbaycana deyin müharibə dayansın, yalvarırdılar. Biz o şərtlə dayandırdıq ki, dərhal danışıqlar başlasın və başlamışdır. Müharibə dayanandan bir ay sonra Vyanada artıq Minsk qrupunun həmsədr ölkələrinin xarici işlər nazirləri səviyyəsində görüş keçirilmişdir. Nə üçün o vaxta qədər bu səviyyədə görüş keçirilmirdi? Amma Aprel döyüşlərində biz ermənilərin başına bir zərbə vurandan sonra dərhal may ayında görüş keçirildi. İyun ayında Rusiyada Zirvə görüşü keçirildi. Sarkisyan mənə söz vermişdi ki, ona iki həftə vaxt lazımdır. Mən söz verirəm ki, bunu həll edəcəyəm. Dedim yaxşı, çıxdı getdi. Ondan sonra orada ya özləri təşkil etmişdilər, ya da özü-özlüyündə belə bir hadisə baş vermişdir, polis bölməsini zəbt etmişdilər. Bunu bəhanə gətirərək imtina etdi. Yenə də bizi aldatdılar. Tək Sarkisyan yox, onların hamısı. 2018-ci ildə Naxçıvan əməliyyatı, yenə də onlara dərs verdik, yenə də göstərdik ki, axırı pis olacaq, məhv edəcəyik sizi. O da dərs olmadı. O da düşdü hakimiyyət dəyişikliyinə. Ermənistana təzə hakimiyyət gəlmişdi. Ondan bir ay sonra biz Naxçıvanda sərhəddə uğurlu əməliyyat keçirərək önəmli strateji yerləri götürmüşdük və artıq Qarabağa gedən yola tam nəzarət edirdik. Müharibə dövründə, - indi bu, sirr deyil, - bilirdik ki, Dağlıq Qarabağa nə aparılır. İstənilən an o yolu kəsə bilərdik. Sadəcə olaraq, buna ehtiyac yox idi. O da dərs olmadı. Ondan sonra yeni hakimiyyət bizdən vaxt istədi. Dedi ki, vaxt verin biz burada daxili problemləri, köhnə xunta nümayəndələrinin problemlərini həll edək, biz həll edəcəyik. Bizi yenə də aldatdılar. Ondan bir il sonra Ermənistanın baş naziri Dağlıq Qarabağda demişdi ki, “Qarabağ Ermənistandır”. Bu, nə deməkdir? O deməkdir ki, danışıqlar qurtardı, mənasızdır. Bu, danışıqların sonu idi. Təxribat xarakterli digər addımlar, hərəkətlər, çıxışlar göstərirdi ki, Ermənistan torpaqları qaytarmaq istəmir. Azad edilmiş torpaqlarda gördüyümüz mənzərə, sizin dəf etdiyiniz o təmas xətləri, o müdafiə xətləri göstərir ki, bir qarış torpaq vermək istəmirdilər. Başımızı aldatmaq, öz himayədarlarına arxalanmaq, onlardan müftə silah almaq, siyasi dəstək almaq, onların ölkələrində yaşayan lobbiçilərdən istifadə etmək və bizi bu vəziyyətdə əbədi saxlamaq - bu idi onların niyyəti. Ondan sonra iyul, sentyabr aylarında dövlət sərhədində təxribatlar törədildi, avqust ayında diversiya qrupu göndərildi və sentyabr ayında artıq İkinci Qarabağ müharibəsi başlamışdır.

Azərbaycan xalqının müharibə ilə bağlı geniş təsəvvürü var. Vaxt keçdikcə ayrı-ayrı əməliyyatlar haqqında da məlumat verəcəyik. Ancaq 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Biz düşməni hər gün qovurduq, hər gün. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar, halbuki müharibələrdə hücumlar, geriyə dönmələr, manevrlər olur. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. İndi onları əfv etmək istəyirlər. İndi 5 minini əfv etmək istəyirlər. Bəs qalan 5 min? Yəqin ki, çıxıb gedib, artıq Ermənistanda yoxdur. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərmişdir, peşəkarlıq, qəhrəmanlıq öz yerində, mənəvi ruh. Onlar bizi görəndə qabağımızdan qaçırdılar, biz onları hər gün qovurduq.

Bütün əməliyyatlar düşünülmüş şəkildə aparılmışdır. Gün ərzində görülmüş işlər hər gün mənə məruzə edilirdi, müşavirələr keçirilirdi, növbəti gün ərzində görüləcək işlərin planı tutulurdu. Deyə bilərəm ki, nəzərdə tutduğumuz bütün məsələlər əksər hallarda öz həllini tapdı. Əlbəttə, bəzi yerlərdə yubanmalar oldu, bəzi yerlərdə daha da tez, yaxud da ki, daha da böyük həcmdə əməliyyat aparıla bilərdi. Ancaq bu, müharibədir, onu planlaşdırmaq mümkün deyil. Hər gün bizim hərbçilərimiz öz həyatını risk altına atırdılar. Çünki o istehkamları, o müdafiə xətlərini keçmək həm peşəkarlıq, güc və həm də cəsarət tələb edirdi. Bizim aslanlarımız ölümə gedirdilər. Çünki onların işi haqq işi idi, onlar öz torpaqları uğrunda vuruşurdular. Erməni əsgərinin bizim torpağımızda nə işi var? Mən bunu hələ bir neçə il bundan əvvəl bir beynəlxalq tədbirdə demişdim. Hansısa erməni mənə sual vermişdi ki, orada snayper müharibəsi gedir, yaxud da erməni əsgərləri ölür. Dedim ki, ölmək istəmirsə, rədd olsun bizim torpağımızdan. Müharibə dövründə dəfələrlə demişdim, Ermənistan rəhbəri mənə tarix versin ki, bizim torpağımızdan nə vaxt rədd olur, həmin an biz müharibəni dayandırırıq. Belə də oldu. 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi, Ermənistan ordusunun beli qırıldı, Ermənistan ordusu məhv edildi. On min fərarisi olan ordu biabırçılıq və rəzalətdir. Onlar öz əsgərlərini döyüş məntəqələrində zəncirlərlə bağlayırdılar ki, qaçmasınlar. Bu, vəhşilikdir, öz əsgərinə qarşı vəhşilikdir.



Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşa əməliyyatı ayrıca bir dastandır, o haqda hələ çox danışılacaqdır. Ancaq Şuşaya gedən hər bir adam o sıldırım qayaları görərkən təsəvvür edə bilmir ki, o alınmaz qala necə alındı. Ancaq peşəkarlıq, rəşadət, qəhrəmanlıq və milli ruh hesabına biz Şuşanı azad etdik və düşmən diz çökdü, qabağımızda başını əydi, ağ bayraq qaldırdı, öz məğlubiyyətini etiraf etdi, noyabrın 10-da kapitulyasiya aktına imza atdı və biz bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonlarının işğal altında olan hissəsini də geri aldıq.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq.

***Ardı Səh. 7***

# "2003-cü ildə hakimiyyətə gələrək söz vermişdim ki, ərazi bütövlüyünü qoruyacağam və bu sözə əməl etdim"

*Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib*

Əvvəli Səh. 6

Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir? Vəhşi, hələ bəlkə də vəhşi o qədər də ağır söz deyil. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Guya onlar burada azlıqda yaşayan mədəni, böyük sivilizasiyaya aid olan bir xalqdır, ətrafında da vəhşi müsəlmanlar bunları əhatə edir. Avropanın hər bir tinində bunu deyirdilər. Rusiyanın hər bir tinində bunu deyirdilər ki, bizə kömək edin, yoxsa bizi burada boğarlar. İndi hər kəs gördü bunun sivilizasiyası nədir, bunun mədəniyyəti nədir, bunun əxlaqı, mənəviyyatı nədir?! Qəbirləri dağıdan, şumlayan, ölülərin qızıl dişlərini çıxaran, məsciddə donuz saxlayan vəhşidir, başqa adı yoxdur. Bütün dünya bunu görüb və daha da çox görəcək.




İndi azad edilmiş torpaqlara ezam olunan insanlar və xarici qonaqlar hər şeyi öz gözləri ilə görürlər. Biz bütün azad edilmiş torpaqları bərpa edəcəyik. Sadəcə olaraq, biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq. Biz çox xeyirxah xalqıq. Bu, həm bizim üstünlüyümüzdür, eyni zamanda, qarşısında vəhşi olanda, xeyirxah olmaq olmaz. Onlara elə cavab verməliyik ki, bunu öz tarixi yaddaşlarında əbədi saxlasınlar, bu, onların yaddaşlarından heç vaxt silinməsin və silinməyəcək. Bu gün orada baş qaldıran bəzi revanşist qüvvələr də bilməlidirlər, dəmir yumruq yerindədir, lazım olarsa, bunların başını elə əzərik və buna əbədi son qoyulacaq.



Bu təntənəli mərasim bu gün keçirilir. Bunun səbəbləri yəqin ki, sizə bəllidir. İlk növbədə, yeni hərbi mükafatlar hazırlanmalı idi, onlar yox idi. Onların dizaynı hazırlanmalı idi, onların hazırlanması təşkil edilməli idi. Bu, vaxt apardı. Eyni zamanda, pandemiyaya görə qapalı yerlərdə belə mərasimlərin keçirilməsi mümkün deyil və hava şəraiti də uyğun olmalı idi. Bir də ki, Hərbi Qənimətlər Parkı hazır olmalı idi. Mən istəyirdim ki, biz Parkın açılışı günündə görüşək və bu yüksək mükafatlar sizə təqdim edilsin və Parkın ilk ziyarətçiləri siz olasınız. Buna görə bir qədər vaxt apardı. Ancaq bu gün bu mərasim keçirilir. Sizə Ali Baş Komandan kimi dərin təşəkkürümü bildirmək istəyirəm. Siz xalqımızın üzünü ağ etmisiniz, dünya azərbaycanlılarının üzünü ağ etmisiniz. Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır.

Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Yaşasın Azərbaycan!

X X X

Daha sonra mayor Gündüz Səfərli, kapitan Nurlan Məmmədov, kapitan Ramazan Hudulov, polkovnik Babək Ələkbərov çıxış edərək diqqətə çatdırıblar ki, döyüş meydanında göstərdiyimiz şücaət nəticəsində torpaqlarımızın işğaldan azad olunması ilə yekunlaşan Vətən müharibəsi Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında Zəfər təntənəsi kimi qeyd edilir.

Prezident İlham Əliyev: Əziz hərbçilər, Sizi həm Qələbə, həm də yüksək mükafatlar münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

X X X

Sonda xatirə şəkli çəkdirildi.

---





# "Bütün sahələrdə Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi özünü təsdiq etdi"

*Prezident İlham Əliyev Türkiyənin Azərbaycandakı səfirini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 10-da Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralı qəbul edib. AZƏRTAC xəbər verir ki, səfiri salamlayan Prezident İlham Əliyev dedi:**

- Hörmətli cənab səfir, sizin fəaliyyət müddətiniz başa çatır, siz Türkiyəyə qayıdırsınız. İlk növbədə, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirmək istəyirəm.

Fəaliyyət müddətində siz Türkiyə-Azərbaycan qardaşlıq əlaqələrinin inkişafı üçün çox böyük işlər görmüsünüz, səylər göstərmisiniz və bu gün bu əlaqələr ən yüksək zirvədədir. Bütün sahələrdə Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi özünü təsdiq etdi və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstək, əlbəttə, həmişə bizim xatirimizdə olacaqdır, bizim qəlbimizdə yaşayacaqdır. Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarından bizə verdiyi dəstək bizi ruhlandırdı və bəzi xarici qüvvələrin bu müharibədən kənarda durmasını təmin etdi.

Bizim əlaqələrimiz çoxşaxəlidir. Siz burada fəaliyyət göstərən səfir kimi əlbəttə ki, bu əlaqələrin nə qədər dərin olmasını yaxşı bilirsiniz. Elə bir sahə yoxdur ki, o sahədə biz əməkdaşlıq etməyək. Son illərdə bütün sahələrdə böyük inkişaf var. Artıq bizim vətəndaşlarımızın qardaş ölkələrə pasportsuz, yəni, daxili sənədlə səfər etməsi, əlbəttə ki, əlaqələrimizin nə qədər dərin olmasından xəbər verir.

Sizin buradakı fəaliyyətiniz həm bir səfir, həm də bir türk vətəndaşı kimi böyük təqdirlə qarşılanır. Siz burada özünüzü vətənimizdəki kimi hiss etmisiniz, bu da təbiidir. İndi demək istəyirdim ki, vətənə qayıdırsınız, əslində, siz vətəndəsiniz və hər zaman burada sizin yeriniz var, bizim ürəyimizdə yeriniz var. Bilirəm ki, Azərbaycan ictimaiyyəti, Azərbaycanda fəaliyyət göstərən ictimai təşkilatlar, media nümayəndələri, rəsmi şəxslər sizin fəaliyyətinizə çox böyük qiymət verirlər, o cümlədən mən. Çünki bu illərdə, əlbəttə ki, həm burada, həm Türkiyədə çoxsaylı səfərlərim əsnasında sizin fəaliyyətinizin şahidi olmuşam və görmüşəm. Bilirəm ki, siz bütün səylərinizi iki qardaş xalqın bir-birinə daha yaxın olmasına istiqamətləndirmisiniz.

Bütün bunları nəzərə alaraq, siz Azərbaycan dövlətinin yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edilmisiniz və istərdim ki, bu yüksək mükafatı sizə təqdim edim.

X X X

Prezident İlham Əliyev "Dostluq" ordenini səfir Erkan Özorala təqdim etdi.

X X X

Səfir Erkan Özoral:

- Çox təşəkkür edirəm. Çox sağ olun.

Cənab Prezident, məni bu şərəfə layiq bildiyiniz üçün Sizə çox təşəkkür etmək istəyirəm, minnətdarlığımı bildirirəm. Siz də dediyiniz kimi, mən Azərbaycan ilə Türkiyəni heç vaxt bir-birindən ayırmadım. İkisi də mənim Vətənimdir, birinci Vətənim, ikinci Vətənim deyil. İkisi də eyni dərəcədə Vətənimdir. Ankara mənim üçün nə qədər əzizdirsə, Bakı da eynidir mənim üçün. Bu sevginin nəticəsi odur ki, özümü çox bəxtiyar hiss edirəm. Çünki Azərbaycana gəlmiş və gələcək bütün türk səfirləri içində ən gözəl anlara şahidlik edən səfir mən oldum. Bu Vətən müharibəsinə şahidlik etmək mənim üçün çox böyük xoşbəxtlik oldu. Özümü fərqli hiss edirəm.

Mən burada Türkiyə ilə Azərbaycanın bir-birinə daha da yaxınlaşması üçün vəzifəmi yerinə yetirdim. Xalqlarımızın bir-birinə yaxınlaşması üçün çalışdım. Amma bu işi görməyə imkanı təmin edən Sizlər, cənab Prezidentlərimiz bizim üçün açdığınız yol oldu. Bunları onun sayəsində edə bildik. Azərbaycanda fəaliyyət göstərdiyim müddətdə bütün qurumlardan, rəsmi şəxslərdən bütün səviyyələrdə başda Siz olmaqla hər zaman dəstək aldım. Hamınıza ayrıca təşəkkür və minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan xalqına Sizin şəxsinizdə minnətdarlığımı çatdırmaq istəyirəm. Hər zaman qardaşlığımızı hiss etdim, getdiyim hər yerdə ona şahid oldum. İnşallah, Türkiyə ilə Azərbaycan bundan sonra daha da bir-birinə yaxın olacaq. Çünki Sizin də söylədiyiniz kimi biz birlikdə güclüyük. Çox təşəkkür edirəm, çox sağ olun.

# Son 17 ilin uğurları: Cənab Prezidentin verdiyi bütün vədlər gerçəyə çevrilir

*Prezident İlham Əliyev: "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir"*

**Bütün dünyada seçkilər dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların ən kütləvi iştirak formasıdır. Bu mənada, xalqın iradəsinin ifadəsi sayılan seçkilərin demokratik, azad keçirilməsi ölkədəki ictimai-siyasi sabitlikdən, ilk növbədə normal seçki keçirilməsinə əsaslı şərait yaradılmasından asılıdır. Bununla yanaşı, istənilən dövlətdə seçkilərin ədalətli və şəffaf həyata keçirilməsi həmin cəmiyyətin demokratik mühitinin yüksək olmasından xəbər verir. Bu prosesin məntiqi yekunu olaraq hər bir xalq öz taleyini inandığı, etibar etdiyi siyasi qüvvəyə bağlayır. 2018-ci il aprel ayının 11-də ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərdə Cənab İlham Əliyevin ümumxalq sesverməsində 86,03 faiz səs qazanaraq növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımız bu düzgün seçimi bugünkü qələbə tarixinin yazılmasında vacib rol oynadı. Prezident İlham Əliyev ötən 17 il ərzində millətimiz üçün ən ağrılı bəla olan, dövlətimiz üçün kifayət qədər ciddi çağırış hesab edilən erməni işğalına son qoydu.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları Ona göstərilən bu etimada görə xalqa ünvanladığı müraciətində demişdir: "Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək bizim inkişafımızın əsas şərtidir. Xalq-iqtidar birliyi Azərbaycanda inkişafımızın əsas amilidir. Xalq-iqtidar birliyi bizim məqsədyönlü siyasətimiz bu gün Azərbaycanı qüdrətli dövlətə çevirmişdir. Siyasətimizin mərkəzində həmişə Azərbaycan vətəndaşı, onun problemləri, qayğıları, onun rifahı olubdur. Keçdiyimiz yol şərəfli yoldur, qələbələr, uğurlar yoludur. Əminəm ki, biz həmişə qələbələr yolu ilə gedəcəyik".

Azərbaycanın çağdaş tarixində yeni intibah mərhələsinin əsasını qoyan, milli mənafelərə söykənən strateji siyasi kursun ardıcıllığını təmin edən, təvazökarlığı həyat tərzinə çevirən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 17 il ərzində sözü ilə əməli bir olan, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edən, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini, etimadını qazanan, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə xalqının Prezidenti olduğunu əməli və yorulmaz fəaliyyəti ilə sübuta yetirmişdir.

## Gerçəkliyə çevrilən vədlər...

Bəli, 17 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 17 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz QARABAĞ AZƏRBAYCANDIR!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət Qələbə Zəfərimizə nail olduq!.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin martın 5-də keçirilən qurultaydakı geniş nitqi çox zəngin və keçilmiş yola verilən qiymətlə, dərin təhlillə səciyyəvi oldu. Dövlət başçısı yüksək intellektual səviyyəsi ilə seçilən proqram xarakterli çıxışı zamanı ölkəmizin son illərdə keçdiyi tarixi yola bir daha nəzər saldı. Bildirdi ki, Azərbaycan bu gün bölgənin və regionun ən qüdrətli ölkələrindən birinə çevrilib: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".



Dövlət başçısı bildirdi ki, bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir: "Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti var. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır".

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan 17 il müddətində Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Azərbaycan kimi çox mühüm geosiyasi mövqeyə və əhəmiyyətə malik olan, qlobal maraqların və ziddiyyətlərin kəsişdiyi məkanda yerləşən bir ölkəyə başçılıq etməsinə baxmayaraq çox qısa bir zaman kəsiyində bütün dünyada böyük hörmət və nüfuz qazandı. Cənab Prezident İlham Əliyevin dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır.

Son 17 il ərzində Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli sosial-iqtisadi siyasət, dərin islahatlar strategiyası Azərbaycanın dayanıqlı inkişafını təmin edib. Azərbaycan hərtərəfli inkişaf yolu keçib. Elə bir sahə yoxdur ki, orada yüksək inkişaf göstəriciləri qeydə alınmasın. Bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və əhəmiyyətli uğurlar qazanılıb. Bunun əsasında isə uğurlu iqtisadi siyasət dayanır. Regionların davamlı sosial-iqtisadi inkişafı təmin edilib, Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri genişlənib, sosial məsələlər uğurla həll olunub. Bununla yanaşı, ölkənin artan imkanları hesabına insan kapitalının formalaşması, əhalinin sosial təminatının, xalqın rifahının daha da yüksəlməsinə yönəlmiş, Azərbaycan nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilmişdir.

## Azərbaycan Prezidenti İlham Əliyev son 17 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!

Bəli, bu, həqiqətən də belədir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" de-

# Son 17 ilin uğurları: Cənab Prezidentin verdiyi bütün vədlər gerçəyə çevrilir

*Prezident İlham Əliyev: "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir"*




yən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

Ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının birbaşa ideya müəllifi olduğu bir sıra sosial-iqtisadi mahiyyətli Dövlət Proqramlarının qəbul edilməsi və onlarının icrası bu istiqamətdə atılmış strateji addımlar kimi dəyərləndirilməlidir. Son 17 il ərzində bu yöndə respublikamızın həyatında qlobal mahiyyət kəsb edən 10-dək dövlət proqramları qəbul edilmiş və onlar çox böyük uğurla reallaşdırılmışdır. Son 17 il ərzində 3100-dən yuxarı məktəb, 650-dən çox tibb müəssisəsi tikilmiş və yuxad təmir edilmiş, 45-ə yaxın olimpiya idman kompleksləri inşa edilərək əhalinin istifadəsinə verilmişdir.

Son 17 ilərzində Azərbaycanın sürətli inkişafı məhz müasir innovasiyaların tətbiqinə verilən önəmlə bağlıdır. Bu sıradan "ASAN Xidməti" İctimai xidmət sahəsinin fəaliyyəti dövlət idarəetmə sahəsinə aiddir. Bilavasitə dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan və fəaliyyət göstərən "ASAN xidmət" dən məqsəd və dövlət orqanlarının işində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin yüksək keyfiyyətlə, rahat və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi olub.

### Qlobal pandemiyaya qarşı savaşda Azərbaycan reallığı

Dünyanın koronavirus pandemiyasından (COVID-19) ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycanın pandemiyaya qarşı mübarizədə mütərəqqi model ortaya qoyması bir daha təsdiqləyir ki, ölkəyə rəhbərlik edən liderin müdrik qərarları bəzən bütöv bir xalqı faciədən hifz edir. Ümumiyyətlə, pandemiyanın yayılmağa başladığı dövrdən Azərbaycan rəhbərliyi çevik qərarlarla, bu bəlanın törədə biləcəyi faciənin miqyası dəqiq təhlil edilməklə mübarizə tədbirlərinə başlayıb. Ölkənin səhiyyə sistemi qısa zamanda virusla mübarizəyə istiqamətləndirilib, xüsusi karantin rejimi tətbiq olunub, modul tipli xəstəxanalar inşa edilib, maska istehsalı fabriki açılıb, 20-dən çox müasir laboratoriya quraşdırılıb.

Azərbaycan Prezidenti çıxışlarında, nitqlərində vurğulayır ki, pandemiyadan çıxış yolu yalnız qlobal həmrəylikdən, dünya dövlətlərinin ümumi səylərini birləşdirməsindən asılıdır. Təsadüfi deyil ki, pandemiyaya qarşı mübarizədə ölkələrin birgə fəaliyyəti, çoxtərəfli əməkdaşlıq təklifini də məhz İlham Əliyev irəli sürmüşdü. Prezidentin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması təşəbbüsünün dünyanın 130-dan çox ölkəsi tərəfindən dəstəklənməsi də bunun bariz nümunəsidir. Ötən ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunan xüsusi sessiyasında İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi çıxış edərək bütün ölkələri bu mübarizədə həmrəyliyə çağırdı, birtərəfli addımlar atılmamasının, peyvəndin bütün ölkələrin xalqları üçün əlçatan olmasının vacibliyini önə çəkdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə bu problemin aradan qaldırılması istiqamətində daha bir uğurlu addım bu ilin mart ayında atıldı. BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edildi. Bununla da Azərbaycan növbəti dəfə qlobal həmrəyliyə öz töhfəsini verdi. Qeyd edək ki, Aprelin 1-də ÜST-ün baş direktorunun təşəbbüsü ilə İlham Əliyevlə Tedros Adhanom Gebreyesusun videokonfrans formatında görüşü və aprelin 6-da bu təşkilatın İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş tədbirində səslənən fikirlər də deyilənləri bir daha təsdiqlədi. Baş direktor Azərbaycanın təşkilata bütün sahələrdə, o cümlədən maliyyə sahəsində 10 milyon dollar dəyərində etdiyi yardımı yüksək qiymətləndirərək ölkəmizin ÜST-ə siyasi və mənəvi dəstəyinin çox dəyərli olduğunu qeyd etdi.

Azərbaycanın pandemiyaya qarşı qlobal səyləri səfərbər edən ilk dövlətlərdən biri olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin təşəbbüsü ilə reallaşan tədbirlərin əhəmiyyətini və respublikamızın beynəlxalq məsuliyyətinə sadiq olaraq ÜST-ə, eləcə də 30-dan çox ölkəyə könüllü humanitar və maliyyə yardımı göstərdiyini diqqətə çatdırdı. Bir sözlə, sözü ilə əməli hər zaman üst-üstə düşən Prezident İlham Əliyev son 17 ildəki uğurları bir daha dəsdiqləyir ki, hər bir Azərbaycan vətəndaşının Prezidenti olmaqla bundan sonra da daha böyük nailiyyətlərə imza atacağının şahidi olacaqlar.

**RƏFİQƏ KAMALQIZI**

## Maltepe Universitetinin professoru:
## Azərbaycan həm iqtisadi, həm də hərbi güc baxımından bölgənin lider ölkəsidir




İkinci Qarabağ müharibəsindən sonra yenidən Azərbaycanda olduğum üçün çox məmnunam. Azərbaycanın doğma torpaqlarını işğaldan azad etməsi bizi sevindirdi. Uzun illərdir bu Qələbənin əldə olunması üçün səy göstərən Azərbaycana Türkiyə böyük siyasi və mənəvi dəstək göstərdi. Türkiyə xalqı hər zaman Azərbaycanla bağlı məsələlərdə 100 faiz dəstək verir. Bu dəfə də belə oldu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ADA Universitetində jurnalistlərə açıqlamasında İstanbul şəhərindəki Maltepe Universitetinin Siyasi elmlər və beynəlxalq münasibətlər fakültəsinin professoru Həsən Ünal deyib.

Hasan Ünal vurğulayıb ki Azərbaycan bu gün bölgənin güclü ölkəsinə çevrilib. Vətən müharibəsində Azərbaycan bunu bir daha sübut etdi. Azərbaycan hərbi və iqtisadi üstünlüyün özündə olduğunu göstərdi. Bu gələcək üçün çox mühüm nəticələrə gətirib çıxaracaq.

Maltepe Universitetinin professoru qeyd edib ki, Türkiyə və Azərbaycan prezidentlərinin regionda altılıq formatında yeni əməkdaşlıq təklifi çox məqsədəuyğundur. Burada region ölkələrinin hamısının iştirakı ehtimal olunur. Digər region dövlətləri ilə yanaşı, Ermənistanın bu platformaya qoşulub-qoşulmayacağı bu ölkədəki vəziyyətin nəticələri ilə məlum olacaq. Hazırda Ermənistan süni dünyadan real dünyaya çevrilmənin çətinliklərini yaşayır. Ermənistanda onların özlərinin yaratdıqları mifoloji, süni "ideologiya" var idi. Hazırda isə bu süni "ideologiya" məhv olub. Bu, bəzən vətəndaş müharibələrinə səbəb olur.

O deyib: "Azərbaycan həm iqtisadi, həm də hərbi güc baxımından bölgənin lider ölkəsidir. Hesab edirəm ki, regional əməkdaşlıq bütün ölkələrə faydalı olacaq. Bundan başqa, Azərbaycan müharibə zamanı xarici siyasəti və həyata keçirdiyi diplomatiyası ilə həqiqətən çox böyük uğura imza atıb. Bu, təreddüdsüz böyük zəfərdir. Azərbaycan Vətən müharibəsi zamanı döyüş meydanında Qələbə qazandı. Eyni zamanda, diplomatiya və xarici siyasət sahəsində də böyük zəfər əldə etdi".

Hasan Ünal bildirib ki, bundan sonra Türkiyə-Azərbaycan əlaqələri getdikcə bir çox sahələrdə daha da dərinləşəcək. Böyük lider, ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı hər sahədəki əməkdaşlığımızda özünü göstərir. Vətən müharibəsində Türkiyənin mövqeyi, Azərbaycanın əldə etdiyi Zəfər, əslində bu kəlamın reallıqda növbəti təzahürü oldu.Mətndə səhv varsa, onu qeyd edib ctrl + enter düyməsini basaraq bizə göndərin

# Zəfər sərkərdəsi

**Uğurlu liderlik missiyasını 18 ildir ardıcıl nailiyyətlərlə davam etdirən cənab İlham Əliyevin xalq tərəfindən aldığı son ümummilli etimaddan 3 il ötür. 2018-ci il aprelin 11-də Azərbaycanın alternativsiz rəhbəri olmaq statusunu yeniləyən Prezident bu gün qlobal miqyasda tanınan, qəbul edilən, bölgənin əsas söz sahibinə çevrilən liderdir. Mükəmməl dövlət idarəçiliyi xüsusiyyətlərini dahi siyasi xadim Heydər Əliyevdən mənimsəyən dövlət başçımız həyatının bütün mərhələlərində kamil liderlik, yüksək peşəkarlıq, ən əsası isə ali vətənpərvərlik xüsusiyyətlərini nümayiş etdirib, tariximizə mühüm izlər salıb.**



Müstəqilliyimizin ilk illərində ölkəmiz ağır siyasi durumla yanaşı, həm də böhranlı iqtisadi vəziyyətdə idi. Dövlət xəzinəsi boşalmış, zavod və fabriklər yararsız vəziyyətə düşmüş, bir sözlə, ölkənin iqtisadi dayaqları tamamilə laxlayıb. Belə bir vəziyyətdə hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev ölkə iqtisadiyyatını qısa müddətdə dirçəltmək üçün xarici şirkətləri Azərbaycana dəvət edərək Xəzər dənizində olan neft yataqlarına maraq yaratmaq istəyirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbul və Hyuston şəhərlərində davam etdirildi. Xarici investorları Azərbaycan neftinə sərmayə qoymağa inandırmaq üçün çox gərgin əmək sərf olunmalı idi. Xarici şirkətlərin əksəriyyəti öz maraqlarından çıxış edirdi. Belə bir vaxtda Ulu Öndər Dövlət Neft Şirkətinin Xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. İlham Əliyev kamil diplomatik məharəti ilə bu danışıqlarda mümkünsüzü mümkünə çevirərək tərəfdaşları layihəyə inandıra bildi və beləliklə, "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bu neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı və neft sənayesinin, bütövlükdə isə ölkənin sonrakı taleyində həlledici rol oynadı. Buradan başlayan missiyanın davamı olaraq, cənab İlham Əliyevin ölkənin elə bir sahəsi olmadı ki, orada müsbət töhfəsi, pozitiv təsiri olmasın.

2003-cü ildə xalqımız müdrik seçim edərək gələcək taleyini Ulu Öndərin siyasi varisi İlham Əliyevə etibar etdi. Son 18 ildə Azərbaycan yeni və müasir keyfiyyət mərhələsinə qədəm qoydu, istər sosial-iqtisadi, istərsə də siyasi baxımdan inkişafın Azərbaycan modeli yarandı. Bu illər ərzində dünyada Azərbaycan qədər inkişaf edən və müsbət mənada dəyişən ikinci bir dövlət olmadı. İnsanların sosial-rifahı və yaşam tərzləri inanılmaz dərəcədə yüksəldi. İlk əvvəllərdə Azərbaycan dövlətinin iqtisadi dayaqları neftdən gələn gəlirlərlə möhkəmlənsə də, sonradan neftdən olan asılılıq tədricən aradan qaldırıldı. Ölkəmizdə baş verən misilsiz inkişafın səbəbləri, əlbəttə, tək neft amili deyil. Dünyada Azərbaycandan nefti, qazı və digər təbii sərvətləri qat-qat çox olan dövlətlər var ki, orada əhali səfalət və yoxsulluq içərisində yaşayır. Burada əsas amil ölkə rəhbərinin idarəçilik və liderlik bacarığıdır.

İlham Əliyevin ağıllı və müdrik dövlət siyasəti, uzaqgörən və prinsipial idarəçilik bacarığı Azərbaycanı ön sıralara çıxardı. Müasir Azərbaycanın inkişafı, dövlət və milli maraqlarımızın qorunması, xalqın rifah halının yüksəlməsi dövlət başçımızın ali keyfiyyətləri sayəsində mümkün olmuşdur. İlham Əliyev özünün əsas vəzifəsini xalqına xidmətdə görməklə tabeliyində olan hər bir məmurdan da bunu təkidlə tələb etməsi onu insanlarımıza sevdirən amillərdən biridir. Onun siyasətinin mərkəzində daim Azərbaycan vətəndaşının mənafeləri durur. Bu səbəbdən də hər bir Azərbaycan vətəndaşı ona inanmaqla daim etimad göstərir. İlham Əliyev o liderlərdəndir ki, prezidentlik dövründə bir dəfə də olsun reytinqi aşağı düşməyib, əksinə, daim yüksəlib.

Hakimiyyətə gəldiyi ilk gündən Qarabağ məsələsi Prezidentin xarici, eləcə də daxili siyasətinin əsas xəttini təşkil edirdi. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə Azərbaycanın 20 faiz torpaqlarının erməni qəsbkarları tərəfindən işğal edildiyini bildirməklə həmin torpaqların bizə məxsus olmasını tarixi fakt və arqumentlərlə dünyaya çatdırır, xalqımızın milli maraqlarını qoruyur və bu məsələdə ikili standart yürüdən dünya dövlətlərini, həmçinin beynəlxalq təşkilatları tənqid edirdi. İlham Əliyev hər bir zaman Dağlıq Qarabağ məsələsinin danışıqlar yolu ilə həll olunmasına çalışıb və qarşı tərəfi sülhə çağırıb. Müharibənin baş verməsini istəməyən Prezident mümkün insan tələfatından qaçmaqla problemi qansız həll etməyə səy göstərib. Lakin Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" deməsi elə danışıqlar prosesinə də nöqtə qoydu. İlham Əliyev hələ Soçidəki "Valday" forumunda çıxışı zamanı buna münasibətini bildirib: "Qarabağ əsl Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır və nida işarəsi".

İlham Əliyev əminliklə bildirirdi ki, əgər sülh danışıqları nəticə verməsə, istənilən yolla Azərbaycan suverenliyini və ərazi bütövlüyünü bərpa edəcək. Bunu nəzərə alan Ali Baş Komandan İlham Əliyevin daim ordu quruculuğuna diqqət və qayğı göstərməsi ordumuzu dünyanın ən güclüləri sırasına yüksəltmişdi. Və nəhayət, o gün gəldi: 27 sentyabr 2020-ci il...

Həmin gün Ermənistan növbəti dəfə təxribat törədərək Azərbaycan torpaqlarına göz dikdi. Dərhal Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və dövlət başçısı iclasda qətiyyətlə dedi ki, Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başlayıb. Ali Baş Komandanın bir çağırışı ilə Azərbaycan xalqı onunla birlik, həmrəylik, yüksək vətənpərvərlik və əzmkarlıq nümayiş etdirməklə bir nəfər kimi bu haqq işində dövlət başçısının yanında olduğunu göstərdi. Əli silah tutan hər bir kəs ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, İlham Əliyevin uğurlu siyasətinin nəticəsi və yeni tarixin başlanğıcı idi. Bu siyasətin və birliyin nəticəsində Azərbaycan Ordusu 44 gün ərzində işğal olunmuş torpaqlarımızı azad edərək mənfur düşməni bütünlüklə darmadağın etdi. İlham Əliyevin qətiyyət və iradəsi, xalq-dövlət birliyi, Azərbaycan əsgərinin peşəkarlığı və qəhrəmanlığı sayəsində Ermənistan şərtsiz kapitulyasiyanı qəbul etmək məcburiyyətində qaldı. Bu 44 gün müddətində Ali Baş Komandan həm bir siyasətçi, həm də bir ordu sərkərdəsi kimi vuruşdu.

Həmin dövrdə dünyanın bəzi media qurumları qərəzli informasiya müharibəsi aparmaqla Azərbaycanın haqq işinə kölgə salmağa çalışdı. Ermənipərəst jurnalistlərin təxribat xarakterli suallarına Prezident soyuqqanlı və məntiqi cavablar verməklə onları susdurur və Azərbaycanın bu müharibədə haqlı tərəf olduğunu bir daha dünyaya tutarlı faktlarla sübut edirdi. Ali Baş Komandan Qarabağ məsələsində hətta dünya siyasətində güc nümayiş etdirən dövlətləri də məhz onların ədalətsiz mövqelərinə görə tənqid edirdi.

İlham Əliyevin çevik siyasəti nəticəsində dünyada heç bir güc mərkəzi Azərbaycanı ədalətsizlikdə ittiham edə bilməzdi. Müharibə günlərində Prezidentin çıxışları hər bir azərbaycanlının döyüş ruhunu yüksəldirdi. Hər kəs Prezidentin ard-arda verdiyi qələbə xəbərlərini səbirsizliklə gözləyirdi.

Prezidentin dəmir yumruğu birliyimizin simvolu idi. Məhz İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbə bizə təkcə itirilmiş torpaqlarımızı qaytarmadı, həm də özünəinamı bərpa etdi, yüksək əzm, iradə, cəsarət və mübarizlikdən yoğrulmuş qəhrəmanlıq ruhumuzu oyatdı, bizi utanc və ümidsizlikdən xilas etdi, bizə böyük qalibiyyətdən doğan yüksək fəxarət hissi yaşatdı. İlham Əliyevin böyük təmkini, uzaqgörən siyasəti, diplomatik bacarığı, sarsılmaz iradəsi və qətiyyəti bizi Şanlı Qələbəyə addım-addım yaxınlaşdırdı. Qədim və doğma şəhərimiz olan Şuşa şəhərinin azad edilməsini məhz Şəhidlər xiyabanından elan etməsi, birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edərək onun vəsiyyətini yerinə yetirdiyini bildirməsi bizi çox duyğulandırdı və eyni zamanda da qürurlandırdı.

İlham Əliyev müharibədən sonra işğaldan azad edilmiş torpaqlarımıza səfərlər edərək erməni vandallığını bir daha dünyaya nümayiş etdirdi. Dağılmış məscidləri, yerlə yeksan olmuş, daşı-daş üstündə qalmayan evləri şəxsən dünya mediasına göstərən Ali Baş Komandan ermənilərin bu torpaqlarda etdikləri vəhşiliklər barədə vaxtilə dediyi sözlərdə nə qədər haqlı olduğunu bir daha əyani olaraq yerində göstərdi. İlham Əliyev bizlər üçün yalnız Prezident deyil, o, xilaskardır və ən əsası, əsl vətəndaşlıq nümunəsidir...

İlham Əliyev Azərbaycan tarixində iz qoyan qalib Sərkərdədir...

*Ruhiyyə ƏLİYEVA,*
*Yeni Azərbaycan Partiyasının üzvü, sahibkar*

## YAP Suraxanı rayon təşkilatının nümayəndələri əsgər ailəsini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov və təşkilatın nümayəndələri Bülbülə qəsəbəsi sakini olmuş, Vətən Müharibəsində itkin düşmüş əsgər Feyzullayev Aydın Zakir oğlunun ailəsini ziyarət etmiş, ailənin qayğıları ilə maraqlanmışlar. Söhbət əsnasında xalqımıza Zəfər bəxş etmiş Müzəffər ordumuzun şücaəti, eyni zamanda əsgər-zabitlərimiz sırasından şəhid və qazilərimizin, o cümlədən 20-dən artıq itkin düşmüş övladlarımızın təəssüflə vurğulanmışdır. Ağır döyüş şəraitində keçən müharibədə xüsusilə ağır artilleriya atəşləri nəticəsində şəhid olmuş övladlarımızın bir qisminin cəsədlərinin DNT analizi nəticəsində müəyyən olunaraq ailələrə təhvil verilməsi mümkün olsa da, bu günədək bəzi döyüşçülərimiz haqqında məlumatın olmaması onların ya əsir düşmələri, ya da cəsədlərinin minalanmış ərazilərdə olmaları səbəbindən itkin statusu almaları ilə kifayətlənmişdir.

İtkin düşmüş əsgərin atası Zakir Feyzullayev Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevlə sonuncu dəfə görüşü zamanı bütün müvafiq dövlət qurumlarının bu işə cəlb olunmaları və itkin əsgərlərimizin tapılıb ailələrinə verilməsi üçün zəruri tədbirlərin görülməsi haqqında məlumat verdiyini bildirmişdi.

*Zümrüd BAYRAMOVA*

## Pakistanlı ekspert: BMT Ermənistanın törətdiyi hərbi cinayətləri diqqətə almalıdır



"Bura ruhlar məkanıdır, ermənilər burada hər şeyi tamamilə məhv ediblər". Bunu "Report"a Ağdama səfər edən İslamabad Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Xalid Əkrəm deyib. "Hər şey - Ağdam məscidi, muzey məhv edilib. Beynəlxalq ictimaiyyət bunu görməlidir. BMT Ermənistanın son 27 ildə törətdiyi hərbi cinayətləri diqqətə almalıdır", - o bildirib.

Ekspert həmçinin minalanmış ərazilərin xəritəsini Azərbaycana vermədiyinə görə Ermənistan tərəfini qınayıb: "Məhz buna görə bura çox təhlükəlidir. Beynəlxalq ictimaiyyəti bu məsələdə Ermənistana təzyiq göstərməyə çağırıram".

## Rusiya Türkiyəyə çarter reyslərini dayandırdı



Rusiya Türkiyə ilə hava əlaqəsini 1,5 aylıq dayandırmağa qərar verib. Bu barədə "RİA Novosti" məlumatına yayıb. Rusiyanın hava əlaqəsini dayandırmasına səbəb kimi Türkiyədə koronavirusa yoluxma halının artması göstərilib. Bildirilib ki, ilk növbədə Rusiya ilə Türkiyə arasında çarter reysləri dayandırılır . Operativ Qərargah Rusiyanın sərnişin aviaşirkətlərinə Türkiyənin bütün aeroportlarına uçuş həyata keçirməyi 1,5 aylıq, aprelin 15-dən iyunun1-nə kimi dayandırmaqla bağlı xəbərdarlıq edib.

Mənbə aviareyslərin dayandırılmasının müntəzəm reyslərə aid olub-olmaması ilə bağlı açıqlama verməyib. Hazırda Türkiyədə olan rusiyalı turistlərin təxliyəsinin olmayacağı, onların planlı şəkildə ölkəyə geri gətiriləcəyi qeyd olunub.

# Qəmər xanım Quliyeva - 75: mənalı ömrün mədəniyyət səhifəsi

## Rəşid Behbudov adına 2 nömrəli onbirillik musiqi məktəbinin direktoru, Respublikanın Əməkdar Mədəniyyət xadimi Qəmər Quliyevanın yubileyi - 75 yaşı tamam olur



**Aprelin 11-də Azərbaycanda musiqi təhsilinin inkişafında mühüm rol oynayan qocaman sənət ocağı - Rəşid Behbudov adına 2 nömrəli onbirillik musiqi məktəbinin direktoru, Respublikanın Əməkdar Mədəniyyət xadimi Qəmər Quliyevanın yubileyi - 75 yaşı tamam olur. Daim mədəniyyətimizin keşiyində dayanan Qəmər xanım həm ziyalı, həm professional musiqiçi, həm də ictimai xadim olaraq ölkəmizə peşəkar musiqiçilərin bəxş edilməsində yorulmadan, əzmlə çalışmışdır.**

Uşaqları təhsilə cəlb etmək, onlarda mənəvi estetik fikrin formalaşması, kamil bir insan kimi cəmiyyətə atılmasında dahi Üzeyir bəyin açdığı musiqi məktəblərinin çox böyük rolu olmuşdur. Dahi bəstəkarımızın qoyduğu bu ənənələri məktəbin ilk direktoru olmuş Fatma Seyidova, daha sonra Zivər İbrahimova qoruyub-saxlamışlar. 1986-cı ildən məktəbə rəhbərlik edən Qəmər xanım bu məsuliyyətli işin öhdəsindən layiqincə gəlir.

O, bu gün də şərəfli vəzifəsini uğurla həyata keçirməkdədir. Çünki belə bir mədəniyyət ocağına rəhbərlik etmək həm də bir məsuliyyət hissi daşıyır. Belə ki, unudulmaz Rəşid Behbudovun adını daşıyan bu mədəniyyət ocağında tarixi reallıqlar, qürur doğuran gerçəkliklər yaşanıb və yaşadılmaqdadır.

Bu məktəbdə təşkil olunan yubiley və konsertlərdə korifey bəstəkarlar, görkəmli ziyalılar, ictimai elm xadimləri iştirak etmişlər.

Hələ üç il əvvəl, 2018-ci ilin dekabrında məktəbin əsaslı təmirindən sonrakı açılışı, eləcə də 80 illik yubileyi qeyd olunarkən çıxış edən Qəmər Quliyeva bildirmişdi ki, əsasən 1940-cı ildən öz işini təkmilləşdirməyə başlayan məktəbdə müxtəlif şöbələr yaradılmış, musiqi təhsilinə çox sayda uşaq cəlb edilmişdir. Musiqi məktəbinə 1990-cı il fevralın 9-da dünya şöhrətli müğənni Rəşid Behbudovun adı verilmişdir.

Eyni zamanda, ötən illər ərzində 2 nömrəli musiqi məktəbi bir çox görkəmli musiqiçilər yetişdirmişdir. Xalq artistləri - pianoçu Zöhrab Adıgözəlzadə, bəstəkar Musa Mirzəyev, kamança ifaçısı Şəfiqə Eyvazova, Xalq artisti, vokalçı Fidan Qasımova, bəstəkar, Əməkdar İncəsənət Xadimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Azər Dadaşov və başqaları ilk musiqi təhsillərini burada almışlar.

Qeyd etmək yerinə düşərdi ki, məktəbin məzunları arasında musiqini əsas ixtisas kimi seçməyən, başqa sahələrdə çalışan tanınmış insanlar, ictimai-siyasi xadimlər də vardır. Əməkdar İncəsənət Xadimi, Dövlət Mükafatı laureatı, rejissor Ramiz Fətəliyev, Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müavini, Azərbaycan Milli Elmlər Akademiyaının müxbir üzvü, professor Sevda Məmmədəliyeva, Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, Əməkdar Mədəniyyət İşçisi Cəmilə Səttarova, Milli Məclisin deputatı, dosent Sevinc Fətəliyeva və başqaları bu qocaman tədris ocağında təhsil almışlar.

Qəmər Quliyeva: "Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident, xanım Mehriban Əliyeva hər zaman ölkədə bütün sahələrə, o cümlədən mədəniyyət sahəsinin inkişafına böyük diqqət göstərirlər"

Bu gün davam edən dəyişilməz ənənə nəticəsində müxtəlif ixtisaslar üzrə yeni-yeni şagirdlər Rəşid Behbudov adına 2 nömrəli musiqi məktəbinin qapısından daxil olaraq, musiqi elminin dərin sirlərini öyrənir, gələcəkdə həm də şəxsiyyət kimi formalaşmalarının bəhrəsini məhz bu mədəniyyət ocağından, eləcə də orada təhsil verən müəllimlər heyətindən alırlar. Hətta belə də deyə bilərik: bu mötəbər məktəbdə dərs keçən müəllimlər heyəti seçilmişlər sırasında dayanırlar. Əbəs deyil ki, məktəbin adı və nüfuzu daim birincilər sırasında yer almaqdadır. Məktəbin məzunları öz professionallıqları, insani keyfiyyətləri və ictimai mövqeləri ilə respublikamızın ictimai-siyasi həyatında böyük rol oynayırlar.

Məktəbin şagirdləri, məzunları respublikamızda və xaricdə keçirilən müsabiqələrdə, mötəbər tədbirlərdə ölkəmizi layiqincə təmsil edirlər. Bu arada, onu da qeyd etmək yerinə düşərdi ki, dünyada davam edən koronavirus pandemiyası ilə bağlı məktəbdə təhsil onlayn qaydada davam etdirilir və buna baxmayaraq, bir sıra onlayn beynəlxalq müsabiqələrdə iştirak edən şagirdlər yüksək nəticələr göstərməklə bir daha bu təhsil müəssisəsinin fəaliyyətinin nə qədər uğurlu olduğunu, qazandıqları diplomları, mükafatları ilə sübuta yetirirlər.

Qəmər xanım Quliyeva onu da vurğulayıb ki, bu gün Azərbaycanda digər sahələrlə yanaşı, elm, təhsil, mədəniyyət sahəsinə göstərilən dövlət qayğısı görülən işlərə vüsət verir. "Ölkəmizdə mədəniyyət, incəsənət sahəsində hər zaman dövlət başçımızın qayğısını hiss etmişik. Cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident, xanım Mehriban Əliyeva hər zaman ölkədə bütün sahələrə, o cümlədən mədəniyyət sahəsinin inkişafına böyük diqqət göstərirlər. Bu məktəbin yenidən fəaliyyətə başlaması da, məhz bu diqqət və qayğının nəticəsidir", - deyə Qəmər xanım bildirib.

Biz də fürsətdən istifadə edərək, Qəmər xanım Quliyevanı ad günü münasibəti ilə təbrik edir, pedaqoji fəaliyyətində və mədəniyyət sahəsində göstərdiyi xidmətlərində uğurlar, möhkəm cansağlığı arzu edirik. Dahi Rəşid Behbudovun adını daşıyan bu musiqi ocağı daima yaşasın və çiçəklənsin!

***Rövşən RƏSULOV***

# "Təhsil böyük dəyər olsa da, sağlamlıq daha vacibdir"

## SİA təhsil eksperti İlqar Orucovun müsahibəsini təqdim edir:



***- Bildiyimiz kimi, bir çox insanlar distant və onlayn təhsilin fərqini anlamır. Sizcə bunlar arasında fərq nədən ibarətdir?***

- Distant təhsil Azərbaycanda pendemiya şəraiti ilə meydana gəlib. Bunun qanunverici bazasının formalaşması və bütöv bir təhsil forması olması istiqamətində işlər aparılır. Zaman-zaman distant təhsilə keçidlə bağlı çağırışlar olub. Bizim üçün pandemiyanın müsbət cəhəti bu oldu ki, distant təhsil inkişaf etdi. Lakin, hələ də internet sürəti və qiyməti ilə bağlı bir sıra problemlər var.

***- Ümumiyyətlə, distant təhsil şagirdlərin biliyinə necə təsir edir?***

- Birmənalı olaraq hal-hazırda təhsilin səviyyəsi kifayət qədər aşağı düşüb. Biz bunun nəticəsini buraxılış və ali məktəblərə qəbul imtahanında görəcəyik. Xüsusilə, buraxılış siniflərində təhsil alan şagirdlər repititor xidmətindən istifadə edir ki, qapanmalar bu vəziyyəti də iflic edib. Təhsil müəssisələri virus mənbəyi deyil. Lakin, bəzi məktəblərin bağlanması ilə bağlı qərar yoluxmalara görə baş tutur. Təhsil böyük dəyər olsa da, sağlamlıq daha vacibdir. Bunu da nəzərə alaq ki, təhsil müəssisələrinin qapanması ilə bağlı qərarı Təhsil Nazirliyi deyil, Operativ Qərargah verir.

***- Tele-dərslərin şagirdlərə nə dərəcədə faydası var?***

- Nə tele, nə də virtual məktəb platforması üzərindən keçirilən dərslər ənənəvi təhsili əvəz edə bilməz. Lakin, reallıq ondan ibarətdir ki, insan sağlamlığı hər şeydən önəmlidir. Həmçinin, onlayn təhsildə hədsiz problemlər var.

***- Distant təhsil platformasında kimlər təhsil ala bilər?***

- Fakt olaraq, 80 faiz şagirdlər distant təhsilə qoşulur. Distant təhsil məktəblərlə nisbətdə ali təhsil müəssisələri üçün daha məqbul sayılır. Çünki, ali təhsil müəssisələrinin tələbələri yetkinlik yaşına çatmışlardır və onların texnologiya imkanları da genişdir. Mobil operatorlar təhsilin, tələbənin yanında olub internet qiymətlərində endirim etməlidir. Ən vacib məsələ isə distant təhsildə hüquqi baza olmalıdır. Distant təhsil alan tələbələrin diplomlarının tanınması ilə bağlı ciddi problemlər var.

***Ayşən Vəli***

# Zatulinin ermənilərdən aldığı "tula payı"



Soçi şəhərindəki Rusiya Erməniləri Birliyi Konstantin Zatulinin "Vahid Rusiya" fraksiyasından VIII çağırış Rusiya Federasiyası Dövlət Dumasına seçkilərdə iştirak etmək üçün namizəd göstərilməsini dəstəkləməyə qərar veriblər. Təbii ki, ermənilərin çəkdiyi xərclərə, Zatulinin tökdüyü bütün "tər"lərə baxmayaraq indiyə qədər onun "erməni təəssübkeşliyi" heç bir təsir gücünə malik olmayıb. Əslində, belə də olacaq. Amma məsələ bundadır ki, "milçək bir şey olmasa da, amma ürək bulandırır". SİA bunu erməni mətbuatına istinadən dərc edir.

Qeyd edilməlidir ki, Zatulin kimilərin fikirləri Azərbaycanla Rusiya arasında əlaqələrin inkişafına da heç bir təsir göstərmək gücündə deyil. Lakin buna baxmayaraq, ermənilər hələ də ümidlidirlər. Yoxsa, Zatulin üçün bu qədər əl-ayağa düşüb, "pul tökməzdilər".

Yeri gəlmişkən, qeyd edək ki, Zatulin ermənilərə yarınmaq üçün arada özünü "göstərməyə" də çalışır. Yadınıza Bakıda keçirilən "Zəfər paradı"nı salaq. Həmin ərəfədə Zatulin ermənilərin nəfinə "canfəşanlıq" etməyə çalışdı. Ermənilərdən qənimət kimi əldə edilən və paradda nümayiş etdirilən texnikanı "Ermənistanın alçaldılması" kimi təqdim edən Zatulin nədənsə, özünün ermənilərə necə alçaldığını dilə belə gətirmədi.

Bu gün Zatulin təkcə Azərbaycan üçün deyil, həm də Ukrayna üçün "arzuolunmaz şəxs"dir. Çünki 2006-cı ildə o, millətlərarası münasibətləri qızışdırdığına görə, onu Ukraynadan iti qovan kimi qovublar. Bu gün erməni dairələrinin əlində oyuncaq olan Zatulinin bütün ictimai-siyasi fəaliyyəti erməni lobbisi tərəfindən maliyyələşdirilir.

Yeri gəlmişkən, bildirək ki, o, deputat olmasına baxmayaraq, Rusiyanın özündə də elə bir ideal adam kimi tanınmır. Belə ki, hələ də, çoxları onu keçmişi qaranlıq olan biri kimi tanıyırlar. Məlumata görə, Zatulin hələ Moskva Dövlət Universitetinin tələbəsi olarkən özünü ali təhsil ocağının "işvərəni" kimi tanıdıb. Yəni tələbə yoldaşları onu universitet rəhbərliyinin agenti kimi tanıyıblar. Onu da xatırladaq ki, sonradan biznesə baş vuran Konstantin Zatulin Moskvada komsomol xətti ilə kommersiya obyektləri yaradıb. Moskvalılara pulsuz mənzil verəcəyi adı ilə onları şirnikləndirərək 2 milyona qədər lotoreya satdıraraq pulları kiminləsə mənibsəyib.

...Deyilənə görə, elə o vaxtlar da Zatulin yaman pul aludəçisi imiş. Bəlkə də elə bunun nəticəsidir ki, şakərindən əl çəkə bilmir. Qeyd edək ki, o bu gündə adətkarda olan Zatulin ermənilərin özlərini təbliğ etmək üçün ayırdıqları vəsaitdən, o da "tula payı"nı götürür.

***Ağasəf Babayev***

# Dmitri Peskov: "Rusiya rusdilli insanların taleyinə biganə qalmayacaq"



Rusiya Ukraynanın Donbass bölgəsindəki gərginliklərlə əlaqədar bir dialoq prosesinə başlamaq üçün iki ölkə arasında imzalanan Minsk Sazişində göstərilən bəzi şərtlərin yerinə yetirilməli olduğunu bildirib. 2015-ci ildə imzalanan Minsk Sazişi Donbass bölgəsindəki Ukrayna və Rusiya, Ukrayna ordusu və Rusiya separatçı milisləri arasındakı qarşıdurmalara son verdi. SİA-nın xarici mənbəyə istinadən verdiyi xəbərə görə, Kremlin sözçüsü Dmitri Peskov Donbassdakı böhranın həlli üçün Almaniya, Fransa, Rusiya və Ukraynanın Normandiya formatında liderlərin sammitinin hazırlanması üçün səy göstərildiyini söyləyib.

Peskov bildirib ki, Ukraynada vətəndaş müharibəsi ehtimalını heç kimin qəbul etmədiyini, lakin Rusiyanın Ukraynanın cənub-şərqində yaşayan rusdilli insanların taleyinə biganə qalmayacağını vurğulayıb. Mətbuat xidmətinin rəhbəri Kiyev hökumətinin Minsk Sazişlərinin bəzi maddələrinin işə yaramadığına dair açıqlamalara təəccübləndiyini də əlavə edib. Son altı ildə Kiyev hökuməti Moskvanın Minsk Sazişinə əməl etmədiyini söyləyən bir sıra açıqlamalar verib. Donbass bölgəsindəki Rusiyanın dəstəklədiyi separatçılarla Ukrayna qoşunları arasında qarşıdurmalar davam edir.

***Qönçə Quliyeva***

# Həmid Pənahov: “11 aprel - Azərbaycan xalqı növbəti dəfə də doğru və müdrik seçim etdi”

**“Son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qarşıya məqsədyönlü və düzgün hədəflər qoyulub və onlara nail olunub. 2003-cü ildə dövlətçiliyimiz üçün tarixi bir məqamda xalq öz müdrik seçimini etdi və cənab İlham Əliyev xalqın ona bu inamını, etimadını tez bir zamanda daha da möhkəmləndirdi”. Bu fikirləri SİA-ya açıqlamasında YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov deyib.**



“Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 17 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından “Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan son 17 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır”,-deyən H.Pənahov onu da vurğulayıb ki, bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86 %) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu: “Azərbaycan xalqı dostu düşməndən, halalı haramdan, yaxşını pisdən ayırmağı bacaran, seçkilər keçirməkdə kifayət qədər təcrübəsi olan müdrik xalqdır, onu bəlağətli çıxışlarla, boş vədlərlə aldatmaq çətindir. Bu günə kimi bütün seçkilərdə xalqımız düzgün seçim edib. Xalq öz qəlbinin hökmü ilə İlham Əliyev cənablarına səs verməklə, sabitliyə, tərəqqiyə, ulu öndər Heydər Əliyevin siyasi və iqtisadi kursunun davam etdirilməsinə səs verdi. Çünki Azərbaycan xalqı Prezident İlham Əliyevi sözü ilə əməli bir olan, bütün fəaliyyətini Vətənimizin inkişafına, tərəqqisinə, çiçəklənməsinə, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsinə, insanların həyat səviyyəsinin daim yüksəldilməsinə, işsizliyin və yoxsulluğun minimuma endirilməsinə, ölkəmizin bütün dünyada müsbət imicinin formalaşdırılmasına yönəldən və bu sahələrdə çox böyük uğurlar qazanan həqiqi lider kimi tanıyır”.

H.Pənahov onu da söylədi ki, son 17 ildə həyatımızın, demək olar ki, elə bir sahəsi yoxdur ki, orada qlobal müsbət dəyişikliklər baş verməsin, çox böyük uğurlara imza atılmasın. Bütün bunları xalq görür və yüksək qiymətləndirir: “Fikrimizin təsdiqi kimi bəzi faktlara diqqət yetirək. Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi və mədəni-mənəvi inkişafının son 17 illik tarixi bilavasitə Azərbaycan Respublikasının Prezidenti, hazırda dünya siyasi liderləri sırasında intellektual potensialına görə xüsusi ilə fərqlənən, müasir imicli siyasi xadim kimi böyük nüfuza malik olan cənab İlham Əliyevin adı ilə bağlıdır. Ölkə başçısı möhtərəm İlham Əliyev cənablarının birbaşa ideya müəllifi olduğu bir sıra sosial-iqtisadi mahiyyətli dövlət proqramlarının qəbul edilməsi və onlarının icrası bu istiqamətdə atılmış strateji addımlar kimi dəyərləndirilməlidir. Son 17 il ərzində bu yöndə respublikamızın həyatında qlobal mahiyyət kəsb edən 10-dək dövlət proqramları qəbul edilmiş və onlar çox böyük uğurla reallaşdırılmışdır. Son 17 il ərzində 3100-dən yuxarı məktəb, 650-dən çox tibb müəssisəsi tikilmiş və yuxad təmir edilmiş, 45-ə yaxın olimpiya idman kompleksləri inşa edilərək əhalinin istifadəsinə verilmişdir. Bütün bu işlər dövlət büdcəsindən ayrılmış vəsaitin hesabına həyata keçirilir.

Son 200 ildə torpaqları əlindən alınan, parçalanan Azərbaycan dövlət olaraq İlham Əliyevin rəhbərliyi altında 2 əsrdən bəri ilk dəfədir ki, torpaqlarını işğaldan azad etdi. Ölkəyə rəhbərlik etdiyi 17 ildə qazanılan uğurlar, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti hərbi təxribatına cavab olaraq “İrəli!” əmri əsasında bütün qüvvə və bacarığını səfərbər edən Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində xalqımızın milli qüruru özünə qayıtdı. 44 günlük Vətən müharibəsi zamanı bütün dünya bir daha şahidi oldu ki, Azərbaycan həqiqətən də güclü dövlətdir, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi ordu quruculuğu nəticəsində dünyanın ən güclü 50 ordusundan birinə çevrilən Azərbaycan Ordusu bu gün döyüş meydanında öz sözünü dedi və işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etdi. Zəfər tarixini yazan cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müzəffər Ali Baş Komandan kimi adını əbədi olaraq tarixə yazdı”.

“Son zamanlar bütün xalq şahidi olur ki, cənab Prezidentin verdiyi bütün vədlər gerçəkliyə çevrilir. Azərbaycanı qarşıdakı illərdə daha möhtəşəm uğurlar gözləyir”,-deyən Pəmid Hənahov bildirib ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimiz tezliklə yenidən qurulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ cənab Prezidentin dediyi kimi, əsl cənnət məkanına çevriləcək.

***R.HÜSEYNOVA***

# Hamiləlikdə oruc tutmaq mümkündürmü?

**Günümüzdə bir çox körpə gözləyən ananı, Ramazan ayı səbəbi ilə “Hamiləlikdə oruc tuta bilərəmmi?”, “Oruc tutsam, körpəm təsirlənəcəkmi?”, “İslam hamilə ikən oruc tutmaq haqqında nə deyir?” suallarının cavabı maraqlandırır.**

## Hamiləlikdə oruc tutmaq olar?

Gələcək ana, həkim tərəfindən təsdiqlənibsə, balanslı və nizamlı bir pəhriz varsa oruc tuta bilər. Bunun heç bir ziyanı yoxdur. Bu dövrdə istehlak ediləcək qidalar ana və körpənin qida ehtiyaclarını ən yaxşı şəkildə qarşılayacaq şəkildə təyin olunmalıdır. Sağlam gələcək üçün ananın pəhrizində meyvələr, tərəvəzlər, taxıl qrupları, ət və süd məhsulları, bol maye qidalar olmalıdır. Ürək, diabet və hipertoniya kimi xəstəlikləri olanlar oruc tutmaq üçün mütləq həkim məsləhətinə müraciət etməlidirlər.



## Hamiləlik aylarında oruc tutmağın təsiri nədir? Hamilə qadınlar nə vaxt oruc tuta bilər?

İlk 3 ayda, gələcək ana, ürək bulanması və qusma ilə kifayət qədər qidalana bilməz. Bundan əlavə, hamilə qadınların oruc tutması ilə maye çatışmazlığı, hipoqlikemiya, bunula əlaqədar huşunu itirmə və ya həddindən artıq yorğunluq daha çox özünü göstərir. 3-cü və 5-ci aylar arası daha rahat hamiləlik olduğundan, oruc tutmaq üçün əlverişlidir. Son aylar körpənin sürətli böyüməsi və kilo alması dövrləridir. Bu aylarda uzun müddət davam edən aclıq körpənin az kilo alması, həm az şəkər, həm də həddindən artıq maye itkisi səbəbi ilə kədərlənməyə və bəzən körpənin tələf olmasına səbəb ola bilər. Bu dövrdə xüsusi diqqət yetirilməlidir.

## Hamilə qadınlar oruc tutarkən nələrə diqqət etməlidirlər? Sağlam pəhriz

Başgicəllənmə, halsızlıq və s. kimi problemləri minimuma endirmək üçün hər oruc tutan günü imsaqa qalxmaq lazımdır. İmsaq yeməyində doyurucu, yüngül və zülalla zəngin qidalar istehlak etmək lazımdır.

Dəmir və kalsium hamilə qadınlar üçün çox vacibdir. Bunlar xüsusilə, imsaq vaxtı qəbul edilməlidir. Süd, bəhməz, az yağlı pendir, qaynadılmış yumurta, kəpək çörəyi və meyvələrin istehlak edilməsi imsaq üçün faydalı olacaqdır. Uzun müddət doymamaq və qəbz qalmamaq üçün ən az 4-5 dilim kəpəkli çörək və maye qəbuluna diqqət yetirilməlidir. İftar bir yeməkdə deyil, iki-üç yeməkdə edilməlidir. Oruc xurma, zeytun və ya su ilə açıla bilər.

## Dinimizdə hamiləlik dövründə oruc tutmaq

Hamiləlikdə tuta bilmədiyiniz orucun yerini tutmağı düşünməlisiniz. Oruc tutmağı bacaran şəxs nəzir verməklə bu borcdan qurtula bilməz. Bu oruc borcundan yalnız oruc tutmaqla qurtula bilərsiniz. Məsələn: hamiləlikdə təsadüfən orucu pozmaq və sonradan tutmaq niyyətində olan bir qadın, bu orucu ödəmədən ölsə, buna görə məsuliyyət daşımır.

***Ayşən Vəli***

## YAP Şəmkir rayon təşkilatı şəhid ailələri və qazilərlə görüşləri davam etdirir





Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının fəalları rayonun Zəyəm qəsəbəsindən olan 2016-cı ilin Aprel döyüşləri iştirakçısı, Aprel döyüşlərində fərqlənməyə görə medalı ilə təltif olunan, Vətən müharibəsi zamanı şəhid olmuş, ölümündən sonra Vətən uğrundə medalı ilə təltif olunmuş kapitan İsgəndərov Arzu Seymur oğlunun böyüyüb boya çatdığı evdə onun ailə üzvləri və Zəyəm-Cırdaxan kəndində şəhd Nərimanzadə Ruslan İlqar oğlunun, Hacıyev İsrayıl Səməd oğlunun, Tatarlı kəndində şəhid İbrahimzadə Seyhun Rafiq oğlunun ailə üzvləri ilə görüşüblər.

YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev ölkəmizdə şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlərdən danışaraq bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva hər zaman şəhid ailələrinə diqqət və qayğı ilə yanaşır. Ölkəmizdə bu qəbildən olan insanların həyat şəraitinin və güzəranının yaxşılaşdırılması üçün konkret tədbirlər görülür.

Sonra F.Vəliyev qəhrəman Azərbaycan əsgər və zabitlərinin cəsarəti, mətanəti və milli ruhu xalqımıza şanlı Qarabağ Zəfərini bəxş etdiyini, Azərbaycanın igid əsgər və zabitləri Vətən müharibəsində elə bir şanlı tarix yazdıqlarını və bu qəhrəmanlıq dastanı əbədi yaşayacaq, gələcək nəsillər tərəfindən öyrəniləcək və şəhidlərimizin əbədiyaşar xatirələri daima yad olunacağnı bildirdi.Aprel döyüşlərinə toxunan rayon təşkilatının sədri qeyd edib ki, bu döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi, ərazilərimizin bir hissəsi işğaldan azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, qələbə əzmini, ədalətin bərpa olunacağını göstərdi.Tarixə “Dördgünlük müharibə” adı ilə düşən aprel döyüşləri hər bir Azərbaycan vətəndaşının hərbi vətənpərvərlik ruhunu daha da yüksəltdi.

Təşkilat sədrinin sözlərinə görə, hərb tariximizə şanlı bir səhifə olaraq yazılan Aprel döyüşləri Vətən Müharibəsində qazandığımız parlaq Zəfərimizin başlanğıc nöqtəsi oldu. Şəhidlərimizin ailə üzvləri şəhidlərimiz haqqında xatirələrini bölüşüblər və şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.Şəmkirli şəhid ailələrinin hər zaman dövlət başçımızın ətrafında sıx birləşdiyini vurğulayıblar..

***Rəfiqə***

## Azərbaycanda COVID-19 əleyhinə peyvənd olunanların sayı açıqlandı

Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 100 vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 14, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 86 nəfərdir. Ölkədə vurulan vaksinlərin ümumi sayı 1 177 187, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 758 289, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 418 898 təşkil edir.

## Azərbaycanda 1 151 nəfər COVID-19-a yoluxub




Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1 151 yeni yoluxma faktı qeydə alınıb, 1 052 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib.

# Antimilli şuranın xain, məkrli missiyası

*Xəyanətə görə isə gec-tez hər kəs cavab verməli olacaq*

**Əslində, müxalifət düşərgəsində hər kəs öz məkrli, xain missiyası ilə aydın şəkildə erməniyə dəstək olduqlarını öz fəaliyyətləri ilə (əgər buna fəaliyyət demək olarsa) çılpaqlığı ilə nümayiş etdirir. Və bu dırnaqarası qurum yarandığı vaxtdan çoxdan özlərini tamamilə deşifrə ediblər.**



Onların bütün fəaliyyətlərində xüsusi sifarişlərin olması açıq şəkildə görünür və həmiyyət naminə bütün müqəddəs dəyərləri ayaqlayıb keçməyə hazır olan, ucuz populizmə, şablon və primitiv təbliğat metodlarına üstünlük verən bu düşərgənin təmsilçiləri mövcudluqlarını göstərmək naminə spekulyasiyalar edirlər. Milli maraqlar qarşısında məsuliyyət hissi olmayan bu qüvvələr hələ də meydan eyforiyasından, ictimai rəydə ikrah hissi doğuran ənənəvi təbliğat metodlarından əl çəkə bilmirlər. Çünki bu qüvvələr öz fəaliyyətlərini dağıdıcılıq planları üzərində qurmağa, ictimai-siyasi vəziyyəti süni şəkildə gərginləşdirməyə və ölkənin beynəlxalq nüfuzuna xələl gətirməyə çalışırlar. Azərbaycanda yaradılmış demokratik şəraitdən bəhrələnmək əvəzinə, müəyyən illüziyalara qapılaraq ölkədəki proseslərin idarəolunmaz müstəviyə keçirilməsinə çalışırlar. Unudurlar ki, "ənənəvi müxalifətçilik" - populizm, ifrat radikallıq, dağıdıcılıq, qaragüruhçuluq, qisasçılıq kimi naqis cəhətlərlə ictimaiyyətin diqqətini cəlb etməyə çalışmaq mərhələsi Azərbaycan siyasəti üçün aktuallığını tamamilə itirib.

## Radikal müxalifət antiazərbaycançı şəbəkənin "beşinci kolon"una çevrilib

Bəli, 1993-cü ildən bugünədək Azərbaycan tamamilə dəyişib və inkişaf edib. Ölkədə dəyişməyən təkcə radikal müxalifət düşərgəsidir. Onlar 1992-ci, 1993-cü ildə necə olublarsa, bu gün də o vəziyyətdə qalıblar. Bu gün də həmin düşərgənin liderləri siyasi mübarizəni intellektual səviyyədə deyil, hələ də küçə təfəkkürü səviyyəsində aparırlar. Budur bunların siması - dəyişə də bilməyəcəklər. Çünki xəmirləri belə yoğrulub. Və bu gün Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Gültəkin hacıbəyli, Arif Hacılı, Vidadi İskəndərli, Sevinc Osmanqızı, Leyla Yunus və bu kimi ünsürlərin sosial şəbəkələrdə gecə-gündüz Azərbaycan dövlətçiliyinə qarşı böhtan çıxışları ilə xalqın nəinki nifrətini, hətta əsəblərini gərginləşdirir. Çünki xalqımızı 1993-ci ildən bu günə kimi bu xain və satqın ünsürlərin çıxışlarının xarici antiazərbaycançı dairələrin maraqlarına hesablanan və onların buyruq qulu olduğunu sübuta yetirir. Xarici havadarlarının maliyyə dəstəyi ilə istənilən yola baş vurmağa, iğtişaşlar törətməyə hazır olan bu ifrat radikal dairələrin iç üzünü çoxdan görüb və radikal düşərgənin əsas "oyunçular"ından biri olan AXCP sədri Əli Kərimlinin son aylarda siyasi "fəal"lığını artırmasının da onun xaricdən "əmr" aldığını da yaxşı bilir. Faktiki olaraq, Azərbaycandakı ifrat radikal müxalifət partiyalarının sədrləri xarici antiazərbaycançı dairələrin ölkəmizdəki "beşinci kolon"una çevriliblər. "Beşinci kolonna", yəni erməni "dəyirmanına su tökən" düşmənin gizli agentləri Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Gültəkin hacıbəyli, Arif Hacılı, Vidadi İskəndərli, Sevinc Osmanyızı, Deyla Yunus və bu kimi ünsürlərin Azərbaycanın maraqlarını satanlar tezliklə buna görə xalq qarşısında cavab verməli olacaqlar. Bu o Əli Kərimlidirp ki, torpaqlarımızın 20 faizini işğal etmiş, 1 milyondan artıq soydaşımızı qaçqın və məcburi köçkünə çevirmiş işğalçı ermənilərlə "əməkdaşlığa" qol qoyan Ruslan Bəşirli olayını xalq hələ də unutmayıb.

## Antimilli qüvvələrin Vətən müharibəsi zamanı xəyanətkar missiyalarını unutmamışıq

"Ayrı-ayrı ictimai nüfuzlu şəxslər, ictimai təsisatlar, media ictimai nəzarət sahəsində üzərinə düşən vəzifəni yerinə yetirməli, vəzifələrindən sui-istifadə edən məmurların neqativ fəaliyyəti ilə bağlı məslələri gündəmə gətirməlidir. Tənqidlərdən və xəbərdarlıqlardan nəticə çıxaranlar, fəaliyyətlərində dönüş edənlər təbii olaraq vəzifələrini davam etdirirlər. Nəticə çıxarmayanların aqibəti isə göz önündədir. Vəzifəsindən sui-istifadə edən dövlət məmuru kim olursa-olsun, mütləq şəkildə cəzalandırılır. Deyilənləri sübut etmək üçün təkcə son iki il ərzində vəzifədən azad olunan və həbs olunan məmurların siyahısına baxmaq kifayətdir".

Bu fikirləri politoloq Yusif Bağırzadə söyləyib. Politoloqun sözlərinə görə, bir müddət öncə dövlət başçısının işğaldan azad olunmuş Şuşa şəhərində ayrı-ayrı dövlət məmurlarının rəhbərlik etdikləri qurumların regional ofislərinin açmaq istəmələri ilə bağlı xəbərdarlığını yəqin ki, xatırlayırsız. "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm!" söyləyən dövlətimizin başçısı İlham Əliyevin bu fikirləri işğaldan azad edilmiş ərazilərimizdə başlanan quruculuq və bərpa işlərində də öz şəxsi maraqlarını güdən bəzi məmurlara növbəti dəfə ciddi mesaj oldu: "Ölkə rəhbərinin tənqidləri həmin məmurların əməllərinin adekvat cavabı idi. Cənab İlham Əliyev haqlı olaraq bildirdi ki, bəzi məmurların ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özünə yeni ofis yaratmaq üçün açıqlamalar verməsi tamamilə qəbuledilməzdir. Məmurlar dövlət qulluqçusunun etik davranış normalarına əməl etməli, öz yerlərini bilməli, öz işləri ilə məşğul olmalıdırlar. Hər bir dövlət qulluqçusu Prezidentin "Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir" devizini öz fəaliyyətlərində əsas götürməlidirlər. Bir daha təkrar edirəm ki, bütün bu kimi problemlərin ortaya çıxarılmasında hər birimiz fəal olmalı və ictimai nəzarəti həyata keçirməliyik."

Politoloq əlavə edib ki, ictimai nəzarətin vacibliyini dövlət başçısı daim vurğulayır. Düzdür indi ucuz populyarlıq dalınca qaçan ayrı-ayrı radikal müxalifət təmsilçiləri, "milli şura" adlanan qurumda təmsil olunan ayrı-ayrı fərdlər ictimai nəzarətin vacibliyi ilə bağlı elə ağız dolusu danışırlar ki, sanki bu təklif məhz onlara məxsusdur. Amma bir şeyi unudurlar ki, ictimai nəzarət şuralarının yaranmasının təşəbbüskarı elə məhz dövlət başçısı özüdür. Prezident İlham Əliyev tərəfindən hələ 2013-cü ildə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanunu təsdiqlənib və 2013-cü il 22 noyabr tarixində həmin qanunun tətbiqi ilə bağlı fərman imzalanıb. İndi əsas məsələ ayrı-ayrı dövlət strukturları tərəfindən yaradılan ictimai nəzarət şuralarında həqiqətən də dəyərli ictimaiyyət nümayəndələrinin iştirakının təmin olunması ilə bağlıdır. Cənab Prezident də ictimai nəzarətlə bağlı danışarkən və ictimai nəzarətin zəruriliyini vurğulayarkən məhz bu amili əsas götürərək çıxış edir. İndi ictimai nəzarətlə bağlı hökuməti tənqid edən qüvvələr isə yaxşı olardı ki, özlərinin bir illik hakimiyyətləri dövründə ölkədə baş-alıb gedən məmur özbaşınalıqlarını, hərc-mərcliyi, ayrı-ayrı məmurlar tərəfindən törədilmiş cinayətləri, dövlətin naziri tərəfindən mətbuat təmsilçilərinin döyülməsini və s. yada salsınlar. Axı bütün bunlar elə də uzaq tarix deyil və bir çoxlarımızın gözü qarşısında baş verib."

Y.Bağırzadə qeyd edib ki, biz nə həmin günləri, nə də adını çəkdiyim antimilli qüvvələrin 44 günlük Vətən müharibəsində də öz xəyanətkar missiyalarını reallaşdıraraq ermənilərin dəyirmanına su tökməyini unutmuşuq: "Günü bu gün də həmin qüvvələr yalnız bir vəzifəni icra edirlər. Vətən müharibəsinin tarixi qələbəmizlə başa çatdığı, bütün dünyanın Cənubi Qafqazda tamamilə yeni reallıqların meydana gəlməsi faktı ilə razılaşdığı bir zamanda antimilli şura təmsilçiləri bəzi maraqlı dairələrin dəstəyi ilə əldə etdiyi təbliğat imkanlarını səfərbər edərək tarixi qələbəmizə inamı sarsıtmağa, xalqın yeni qürur mənbəyinə şübhə yaratmağa çalışırlar. Gizli maliyyə dəstəyinin qarşılığında xaricdəki havadarlarının sifariş və tapşırıqlarını canla-başla yerinə yetirən bu antimilli dəstə informasiya texnologiyalarının yaratdığı geniş imkanlardan istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyasını hər keçən gün daha da genişləndirərək yerli və beynəlxalq ictimai rəyi çaşdırmağa çalışırlar. Onların tutduğu bu yol xəyanət yoludur. Necə ki, bir məmuAncaq bilməlidirlər ki, dövlətimizə, xalqımıza qarşı xəyanət edən hər kəs bu xalqın qarşısında cavab verəcək".

Bəli, xəyanətə görə isə gec-tez hər kəs cavab verməli olacaq. Azərbaycan xalqı bunu heç vaxt nə unutmayıb, nə də unutmayacaq. Və bu qüvvələr, heç olmasa, Azərbaycan tarixinin Zəfər səhifələrini yazmış xalqın bir gün onları mühakimə edəcəyindən qorxsunlar.

***Rəfiqə HÜSEYNOVA***

MARAQLI FAKTLAR

# Niyə xərçəng oluruq: genetik və ya ətraf mühit?

**"Türkiyə və dünyadakı ölüm səbəbləri arasında ikinci sırada xərçəng xəstəliyi yer alır". SİA-nın verdiyi məlumata görə, bunu türkiyəli həkim Nurten Elkin deyib.**

Onun sözlərinə görə, bu gün xərçəngin yüzdə otuz və əllisinin qarşısını almaq olar: "Bu ancaq risk faktorlarından qaçınmaq və erkən diaqnoz qoymaqla mümkündür. Xərçəngə səbəb olan faktorların yüzdə 90-ı ətraf mühit, yüzdə 10-u isə genetikdir".

**Xərçəngin 10 faizi genetikdir**

Xərçəng dünyada ürək-damar xəstəliklərindən sonra ölüm səbəbləri arasında yer alır. Ətraf mühit faktorlarına baxdığımızda alkoqol, tütün istifadəsi, infeksiyalar, zərərli qidalanma və piylənmə qarşısını ala bilən səbəblərdir.

Xərçəng ümumi xüsusiyyətlərinə görə bir çox xəstəliyə verilən ümumi bir addır.

Xərçəngin əlamətləri:

Sinədə ağrısız, böyüyən bir kütlənin əmələ gəlməsi qoltuqaltı, boyun, qasıq kimi bölgələrdə dərinin altında şişmə

Bilinməyən bir səbəblə kökəlmək və ya arıqlamaq

İştahsızlıq və yorğunluq

Sağalmayan yaralar

Uzun müddət öskürək

İshal və qəbizlik kimi bağırsaq vərdişlərindəki dəyişikliklər

Çətin və ya ağrılı sidik ifrazı



Yeməkdən sonra həzmsizlik

Çətin udma

Qarın ağrısı

Səbəbi açıqlanmayan gecə tərləri

Qanlı sidik

Burun və diş ətindən qanaxma

Nəcisdə qan

Dərinin altından qanaxma və asanlıqla göyərmə

Bir çox xərçəng növünün sağalma ehtimalı yüksəkdir

Simptomların səbəbi çox vaxt xərçənglə əlaqəli deyil, əgər şübhəli hal olarsa mütləq şəkildə həkimə müraciət olunmalıdır. Bir çox xərçəngə erkən diaqnoz qoyulsa və lazımi şəkildə müalicə edilərsə sağalma ehtimalı yüksəkdir. Cəmiyyətdəki fərdlər tütün məhsulları istifadə etməsi, adekvat və balanslı qidalanmasını təmin etməsi, fiziki aktivliyi artırması, sağlam bir çəki saxlaması və alkoqoldan çəkinməsi ilə xərçəngin qarşısını ala bilər. Bundan əlavə, hava çirkliliyinin qarşısının alınması, xüsusilə saat 10:00-16: 00 arasında günəş işığına məruz qalmamaq və qoruyucu tədbirlər görülməsi, xərçəngə səbəb olan "HPV" və "Hepatit B" kimi infeksiyalardan qorunma, kanserogen maddələrin peşə və ətraf mühitə məruz qalması da xərçəngdən qorunmada vacibdir.

**Cəmiyyət məlumatlanmalıdır**

Xərçəngin erkən diaqnoz proqramları ilə cəmiyyətin məlumatlanması vacibdir. Şəxslər simptomlarla qarşılaşdığı zaman həkimə zamanında müraciət etsələr, çox müsbət nəticələr əldə edəcəklər.

***Ayşən Vəli***

# Mikael Minasyan: "İnsanları eşşək hesab etməyi buraxın"

"Siz öz susmaq və siyasətdən kənar qalmaq hüququnuzdan istifadə etdiyiniz kimi, Qaqik Sarukyan da bir toy və atəşfəşanlıq təşkil etmək hüququndan istifadə edir." SİA xəbər verir ki, bu barədə Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan öz Facebook səhifəsində yazıb.



"Əvvəllər Nikola səs verən əziz həmvətənlərimiz, indi qışqırmaqdan boğazınızı qopardığınız zaman, Yerablurdan ürək ağrıdan fotoşəkilləri Facebookda yerləşdirdiyiniz halda və ya Qaqik Sarukyanın ailə hadisəsi ilə əlaqədar əsəbi qeydlər etdiyinizdə, sizə xatırlatmaq istəyirəm ki, bu, sizi şəfaverici su ilə təmin edən həmin Sarukyandır.

Xatırladım ki, Sarukyanın əvvəlki şənliyində Nikol öz ailəsi ilə birlikdə fəxri qonaqlar idilər. Sizi bu qədər qəzəbləndirən hər iki hadisə məhz onunla birgə baş verib. "Mənim addımım"-dan olan lazımsızlar da şənlik zamanı gördüyünüz kimi oxuyub rəqs ediblər. Bu dəfə susurlar, çünki tapşırılıb ki, sussunlar, mərasimi korlamasınlar, əksinə, müxalifətə qarşı narazılıq dalğası yaratsınlar. Hörmətli müxalifətçilər, indi bayram sizə aid edildiyi üçün niyə əsəbləşdiniz? Çiçəklənən Ermənistan hərəkatın üzvü deyilmi? Sarukyan Nikol ilə seçkilərdə iştirak haqqında bir razılığa gəldikdə, Nikolun başçılıq etdiyi dövrdə və Nikolayın təkcə düzəliş etdiyi Seçki Məcəlləsində hərəkatın mövqeyini ifadə etdimi? Elə deyilsə, niyə tərkibdə qalmağa davam edir? Nəticələrini başa düşmədik deməyin, yeri gəlmişkən, toya hər iki düşərgənin nümayəndələri qatılmışdı.

Hörmətli hərbi əsirlərin, itkin düşən və ölən əsgərlərin valideynləri! Yalnız sizin danışmaq hüququnuz var, amma nəhayət başa düşün ki, susmaq və "siyasətdən kənar" olmaq hüququnuzdan istifadə etdiyiniz üçün öz növbənizdə Qaqik Sarukyan bir toy təşkil etmək hüququndan istifadə edir və atəşfəşanlıq yaradır.

Hörmətli Cəmiyyət! Əksəriyyətiniz Ermənistanda müharibə, xəyanət, məğlubiyyət olduğunu və ölkənin problem içində olduğunu artıq "unutduğunuzdan", bu səbəbdən toy təşkilatçısından başqa bir şey gözləməyin. Sizinlə onlar eyni hüquqlara malikdirlər. Xatırladım ki, Ermənistanda həqiqət anl gəlib. İnsanları eşşək yerinə qoymağı, eşşək hesab etməyi və özünüzü müqəddəs kimi göstərməyi buraxın", deyə Mikael Minasyan öz sosial şəbəkə hesabında yazıb.

***İnam Hacıyev***

# Müsavatçı Əli Kərimlini və Cəmil Həsənlini dərhal istefaya çağırdı

## Qabil Rzayev: "Yəni bir insan öz qadınına, öz qızına, öz ailəsinə aid namusuna sahib çıxmazmı?"



Sözdə Azərbaycanın "ana müxalifət liderləri" qismində özlərini zorən ictimai rəyə sırıyan iki fərdin - AXCP sədri Əıi Kərimlinin və "Milli Şura"nın sədri Cəmil Həsənlinin elə müxalifət cinahında yer alan digər müxalifət təmsilçiləri tərəfindən dışlanması prosesinə start verilib. Əbəs deyil ki, son zamanlar bir-birini daha tez-tez əvəzləməyə başlayan müxalifətdaxili çəkişmələrə daha bir səbəbin, məhz Cəmil Həsənlinin qızına aid məlum, rüsvayçı videoların sosial şəbəkələrdə yayılmasıdır. Daha dəqiq desək, bu məsələnin sürətlə ictimailəşməsinin ardınca bir-birlərinə qarşı mehriban düşmən rolunda çıxış etmələrinə rəğmən, hətta müxtəlif məsələlərdə AXCP və "Milli Şura" ilə bir araya gələn Müsavat partiyasının aparıcı təmsilçiləri də öz etirazlarını səsləndirməyə başlayıblar. Etiraz və hiddət isə yalnız bir məxrəcə doğru yönəlib - Əli Kərimli və onun əlaltısı Cəmil Həsənli Azərbaycanın ictimai-siyasi səhnəsini dərhal tərk etməli, istefaya getməlidirlər.

"Azərbaycanın ictimai-siyasi səhnəsini rahat buraxın, Azərbaycan xalqını rahat buraxın"

SİA xəbər verir ki, artıq bununla bağlı irəli sürülən tələblər sosial şəbəkələrdə ard-arda olaraq diqqətə çatdırılır, hər iki fərdin bütövlükdə müxalifətə, həmçinin Azərbaycanın milli dəyərlərinə zərər vurduqları açıq-aydın vurğulanır. Mövzu ilə bağlı təqdim etdiyimiz videogörüntüdə Əli Kərimli-Cəmil Həsənli cütlüyünə müraciət edənlərdən biri də Müsavat partiyasının İsveçrədə yaşayan funksioneri, "Avropa Azərbaycanlıları Milli Birlik Şurası"nın sədri Qabil Rzayevdir. O öz çıxışında qeyd edib ki, bu gündən sonra nə Cəmil Həsənlinin, nə də Əli Kərimlinin Azərbaycanın ictimai-siyasi həyatında söz demək ehtimalları sıfır dərəcəsində də deyil, hətta sıfır həddinin altındadır. SİTAT: "Əgər onlara "sizlər öz ailənizə sahib çıxa bilmirsinizsə, sabah Azərbaycan cəmiyyətinə necə sahib çıxacaqsınız?" sualını versələr, onlar heç bir cavab verə bilməyəcəklər. Yəni bir insan öz qadınına, öz qızına, öz ailəsinə aid namusuna sahib çıxmazmı? Sən buna sahib çıxa bilmirsənsə, Azərbaycan xalqının namusuna necə sahib çıxacaqsan? Əli Kərimli və Cəmil Həsənli olmaqla, sizdən çox xahiş edirəm, əgər xahişimi nəzərə almırsınızsa, tələb edirəm ki, Azərbaycanın ictimai-siyasi səhnəsini rahat buraxın, Azərbaycan xalqını rahat buraxın. Sizi siyasi və ictimai fəaliyyətdən istefaya dəvət edirəm".

"Siz bu səhnədə gəncliyin, Azərbaycanın milli ideologiyası ilə təşkilatlanmanın önünü kəsirsiniz"

Müsavatçı funksioner hər iki fərdin cəmiyyətdən kənarda dayanmalarını istəyib, həmçinin tələb edib ki, ölkədə normal müxalifətin fəaliyyətinin qarşısını məhz bu adamlar kəsirlər, onlar iqtidarla sağlam rəqabətin yaranmasına şərait yaratmırlar. Habelə, Qabil Rzayev AXCP və "Milli Şura" sədrlərinin ölkə gəncliyinin də həyatlarını zəhərlədiklərini, gənclərin baxışlarını yanlış yola cəlb etdiklərini bildirib. "Bu cəmiyyətin yaxasından əllərinizi çəkin. İcazə verin iqtidarla daha düzgün, daha doluğun rəqabət apara biləcək milli müxalifət yarana bilsin. Siz bu səhnədə gəncliyin, Azərbaycanın milli ideologiyası ilə təşkilatlanmanın önünü kəsirsiniz. Əgər siz Azərbaycanı sevirsinizsə, ictimai-siyasi fəaliyyətinizdən dərhal geri çəkilin".

"Əli Kərimli belə Cəmil Həsənlinin heç bir kitabını oxumayıb"

"Avropa Azərbaycanlıları Milli Birlik Şurası"nın sədri daha bir maraqlı detala toxunmaqla Cəmil Həsənlinin fəaliyyətinin heç bir səmərə verməməsinə, habelə Əli Kərimlinin onun yazdığı kitablardan bixəbər olmasına da işarə edib, üstəlik "Milli Şura" sədrinin sovetlər quruluşundakı kommunizm-partokratçılıq fəaliyyətini də xatırladıb. SİTAT: "Cəmil Həsənlinin özü iki ildir fərqli-fərqli ölkələrdə fərqli-fərqli arxivlərdə tarix sahəsində sözdə araşdırma ilə məşğuldur. Amma mən inanıram ki, hətta Əli Kərimli belə Cəmil Həsənlinin heç bir kitabını oxumayıb. Biz Cəmil Həsənlini sovet dönəmində siyasi icmallarından tanıyırdıq. Cəmil Həsənlini əzbərlənmiş sovet sisteminin xarici siyasətini dəstəkləyəcək nağıllar aləminə səyahət mövzusunda, bir də parlamentdə iqtidarla əməkdaşlığından tanımışıq", deyən müsavatçı "Milli Şura" sədrini və onu dəstəkləyənləri əxlaqsız da adlandırıb. "Cəmil Həsənlini və Əli Kərimlini prinsipi olmayan əqidəsi olmayan, milli məfkurəyə xəyanət etmiş, əxlaqsız, prinsipsiz, davasız bir insanlar kimi tanıyırıq və sizdən xahiş edirik ki, Azərbaycan cəmiyyətini, Azərbaycan siyasətini rahat buraxın", deyə o qeyd edib.

***Rövşən RƏSULOV***

# Təhmasib Novruzov: "Müxalifət xəyanət yolu tutmaqdan da çəkinmir"



"Xaricdəki söyüş "qəhrəmanları"nın bu ölkələrdən deportasiya edilməsi ilə bağlı xəbəri həm sevinc hissi ilə qarşıladım, həm daxilən mütəəssir oldum. Mütəəssir olmağımın səbəbi o idi ki, axı onların hər biri, ən azı sənədlərinə əsasən bu xalqın nümayəndələri, bu ölkənin vətəndaşlarıdır! Necə oldu ki, onlar bu şərəf və ləyaqəti aşağılayan iyrəb yolun yolçuları oldular? Məncə cəmiyyət olaraq hər birimiz bu haqda düşünməliyik. Əksəriyyəti gənlər olan bu qrupun belə ləyaqətsiz yolla pul qazanmaq istəklərinin kökündə təkcə onların qanlarındakı haram elementlərlə bağlamaq, düşünürəm ki, düzgün olmazdı". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, onlar bu yola düşmək üçün dəridən-qabıqdan çıxıb saxta sənədlər tərtib ediblər: "Bu saxta sənədləri kimlər verirdi onlara? Əli Kərimli, Cəmil Həsənli kimi özünü siyasi müxalifət adlandırıb vətəndaşı olduğu ölkənin maraqlarını xarici anti-Azərbaycan qüvvələrə, o cümlədən ermənilərə və ermənipərəst qüvvələrə satan siyasət dəllalları. Axı bunlar gənc deyillər, bu yolun heç kimə şərəf, şan gətirməyəcəyini çox yaxşı bilirdilər. Bilib də bu yola gəncləri cəlb etmək isə, hüquqi tərəfi bir yana, ciddi mənəvi məsuliyyət yaradır. İqtidara müxalifik demokratik cəmiyyətlərdə normal hal hesab edilir. Ancaq iqtidarı gözdən salmaq adı altında dövlətin, millətin dəyərlərini satmaq xəyanətdən başqa bir şey deyil. Nə yazıqlar ki, bizim arxiv iyi verən bəzi siyasət dəllallarımız belə xəyanət yolu tutmaqdan da çəkinmirlər. Sonda zərbə gələcəyimizə, onu quracaq gəncliyimizə dəyir. Mən bilmirəm, onlar Azərbaycana hansı üzlə qayıda biləcəklər. Gözləmək olar ki, Avropada onlara ağalıq edən Leyla Yunus kimilərin köməyi ilə yeni ölkələr tapacaqlar ki, siyasi mühacir adı ilə onları yerləşdirsinlər. İstənilən halda bu faktın özü onların daha da düşük vəziyyətə salınmasına gətirib çıxaracaq. Bir də, məni başqa bir məsələ düşündürür. Bəzi müxalifət adlanan qüvvələr, istifadə etdikləri bu üsuldan əlləri boşa çıxdığını görüb indi hansı vasitələrə əl atacaqlar? Gözləyək, müşahidə edək, tezliklə biləcəyik!".

***Gülyana***

# "Nar" paytaxt və regionlarda yenilənmiş xidmət mərkəzlərini təqdim edir

Müştərilərin ehtiyaclarını qarşılamaqla keyfiyyətli xidmətlər təklif edən "Nar" satış və xidmət mərkəzlərini yeniləməyə davam edir. Mükəmməl müştəri təcrübəsi təqdim etmək məqsədilə mobil operator Fəvvarələr meydanı, "Elmlər Akademiyası", "Sahil", "Əhmədli" metrostansiyaları yaxınlığındakı, eləcə də Lənkəran, Şəki, Quba da daxil olmaqla 22 "Nar" xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərin ixtiyarına verib.

"Nar" mərkəzlərdə rəqəmsal panellər quraşdıraraq ziyarətçilərin müasir üslubda məlumat və xidmət almasını təmin edir. Mağazalarda nömrələrin üzərində əməliyyatların aparılması, satışı da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Bundan başqa, yenilənmiş "Nar" mağazalarında mobil telefonların, cihazların və müxtəlif aksesuarların nağd və ya kredit ilə satışı da həyata keçirilir.




"Azerfon"un Baş İcraçı direktoru Qunnar Pankenin sözlərinə görə, şirkətin müştəriyönümlü strategiyasının bir hissəsi kimi "Nar" həm Bakı, həm də bölgələrdə bütün satış və xidmət mərkəzlərini yeniləməyi hədəfləyib: "Pərakəndə satış kanallarımızın yenilənməsi layihəsinin ən vacib mərhələlərindən birini yekunlaşdırdıq, paytaxt və regionlar üzrə 22 "Nar" xidmət mərkəzini tamamilə yeni konsepsiyada müştərilərimizin ixtiyarına verdik. Artıq yenilənmiş mağazalarımızda satış və xidmətlər vahid məkanda təqdim edilir. Müştərilərimizə daha yaxın olmaqla, məlumat və xidmətlərin daha rahat əldə edilməsini təmin edirik. Yenilənmiş mağazalar "Nar" brendinin müştəri yönümlü yanaşmasının daha da gücləndirilməsinə və müştərilərin mağaza təcrübəsinin mükəmməlləşdirilməsinə xidmət edir".

Qeyd edək ki, sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar.

# Yalançılar həmişə "səmimiyyətdən" danışarlar...

**...Sən demə, Nikol Paşinyan da böyük fanatik imiş. Bilməmiş olmazsınız, deyirlər fanatizm dağıdıcı olur: insanı kor və ağılsız edir. Elə Nikol Paşinyan kimi. Əgər o Stalin və ya Hitlerin vaxtında doğulsaydı, yəqin ki, çoxdan o dünyaya göndərilmişdi. Bu gün Nikolun bir fanatik kimi Ermənistanda yaşaması onun və ailəsi üçün xoşbəxtlikdirsə, ermənilər üçün böyük bir bədbəxtçilikdir. SİA bunu erməni mətbuatına istinadən dərc edir.**



Təbii ki, ermənilərin keçmiş müdafiə nazirinin müavini Artak Zakaryan tərəfindən səsləndirilən bu fikirlər çoxlarına bəlli olsa da, amma onun dilindən necə də "orjinal" səslənir. Zakaryana görə, vaxtilə Fransa inqilabının təməl dəyərlərinə böyük bir zərbə vuran fanatizm Ermənistandakı inqilabdan da yan keçməyib. Doğrudur, Nikolun Ermənistandakı fanatizmi ermənilərin elə də böyük bir kütləsini əhatə etməsə də, ancaq fanatizm təhdidi onun böyük və ya kiçik olması ilə deyil, onun varlığındadır.

Yenə də Nikolu vətən xaini və hər şeyi məhv edənin biri kimi, təqdim edən sabiq vəzifə həsrətlisi bunun siyasi cəhətdən sübuta yetirilməsinə ehtiyac olmadığını bildirir. Zakaryana görə, yalnız axmaqlar bunu dərk etmirlər. Ancaq bu gün Ermənistanda Nikol fanatizmi və onun fanatikləri olmasaydı, ölkə hələ də "ayaqda idi".

Belə çıxır ki, Ermənistan indi də bundan sonra düşəcəyi "koma"dan ehtiatlanır. Nə deyəsən, ehtiyatlanmağa əsası da var. Elə biliriniz, ermənilər hazırda təkcə fanatiklərə qarşı mübarizə aparırlar. Yox, bu gün ölkədə yalançılıq da baş alıb gedir. Yəni tinbaşı yalançı ilə doludur.

Bir müddət bundan əvvəl dediyimiz kimi, götürək hazırda Serj Sarkisyanın yanında kargüzarlıq edən Armen Aşotyanı. Dünyanın elə əvvəldən "balacaboylular tərəfindən idarə olunduğunu" əsas gətirən Armen bəstəboy Serjin vaxtında nüfuzlu beynəlxalq təşkilatların ermənilərə böyük "önəm verdiklərini" bildirir. Guya Qarabağ münaşiqəsi ilə bağlı Serj Sarkisyan tərəfindən qoyulan danışıqlar irsi son dərəcə "güclü və erməniperəst" olub. Aşotyanın dediyinə görə, hətta bütün dünya siyasətçiləri də bunu etiraf edirmişlər. Amma neyləyəsən ki, Paşinyan hakimiyyətə gəlməklə hər şeyi "puç" elədi.

Erməni yalançısı deməkşən qoy birini də deyim. Belə ki, ötən günlərin birində erməni saytlarına məddahlıq edən Semyon Baqdasarovun dediklərindən "cuşa" gələn politoloq Stepan Danielyan da erməni həmkarlarından geri qalmaq istəməyib. O, deyib ki, guya amerikalılara görə, bu gün Vaşinqtonun maraqlarını inkişaf etdirmək üçün ən münasib ərazi Ermənistan ərazisidir.

...Əslində, baş qoşmağa dəyməz, çünki erməni yalanının kökü qədimdir. Deyir bütün günü dilinə yalan gətirən ermənilər, çox vaxt da "səmimiyyətdən" danışırlar.

***Ağasəf Babayev***

# "Vostok"dan "Azerspace"dək yarım əsrlik kosmik yol

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*




Ümumdünya Aviasiya və Kosmonavtika Günü olan 12 aprel tarixi bəşəriyyətin və xalqımızın tarixində şəksiz olaraq ən böyük və ən əhəmiyyətli bir hadisənin- kosmosa ilk insanın göndərilməsinin 60-cı ildönümüdür

**İnsanın kosmosa çıxmaq həvəsi tarix boyu olub. Bu arzunu reallaşdırmaq imkanı isə 20-ci əsrdə meydana gəldi. SSRİ və ABŞ arasında 50-ci illərdə kosmosun fəthi sahəsində gedən gərgin mübarizə başlamışdı. Kosmik yarış soyuq müharibə dövründə SSRİ və ABŞ arasında mədəni, texnoloji və ideoloji qarşıdurmanın vacib bir hissəsinə çevrilmişdi. Və bu yarış da insanın kosmosa yolunu açdı.**

## Kosmik yarış necə və nə ilə başladı?

Kosmosa yolu Sovet İttifaqı açdı- 4 oktyabr 1957-ci ildə Yerin ilk süni peyki "Sputnik-1" orbitə çıxarıldı. ABŞ isə özünün "Explorer-1" adlı ilk süni peykini 1958-ci il fevralın 1-i orbitə çıxardı. 1957-ci il martın 11-də SSRi kosmosa ilk dəfə canlı göndərdi. 1959-cu ildə "Luna-3" Ayın görünməyən tərəfinin fotosunu Yerə göndərdi.

Bütün dünya ilk insanı kosmosa hansı dövlətin göndərəcəyini maraqla gözləyirdi.

1961-ci ilin əvvəllərindən ABŞ astronavtı Alan Şepard orbitaltı uçuş üçün məşq edirdi. O, "Redstone" adlı raketlə 1961-ci ilin mayında uçmalı idi. Lakin Sovet kosmik proqramının rəhbəri Sergey Korolyov amerikalıları qabaqladı- aprelin 12-də Yuri Qaqarin Sovet kosmik gəmisi "Vostok"la kosmosa göndərildi.

Tarixi uçuş 12 aprel 1961-ci ildə Baykonur kosmodromundan həyata keçirildi. "Vostok" gəmisində uğurla kosmosa çıxan Yuri Qaqarin kosmik orbitdə 108 dəqiqə dövr etdikdən sonra sağ-salamat Yerə qayıtdı.

Beləliklə, bəşər tarixinin ən böyük hadisəsi baş verdi və insan kosmosa ayaq açmış oldu.

## Dünyanın ilk kosmonavtının qısa həyat tarixçəsi

Yuri Qaqarin 1934-cü il martın 9-da Smolensk ətrafında Qjatsk rayonunda sadə kəndli ailəsində anadan olmuşdur. 1951-ci ildə Yuri Saratov aeroklubunun üzvü olur. 1955-ci ildə təhsilini əla qiymətlərlə başa vuraraq Yak-18 təyyarəsində ilk dəfə sərbəst uçuş edir.

27 oktyabr 1955-ci ildə Qaqarin əsgərliyə çağırılır və Orenburqdakı 1-ci hərbi aviasiya məktəbinə göndərilir. 25 oktyabr 1957-ci ildə o, bu məktəbi bitirir.

1960-cı ildən general Verşinin əmri ilə o, kosmik uçuşlar üçün hazırlıq komandasına qəbul edilir. Serqey Korolyovun rəhbərlik etdiyi komissiya 6 namizəd arasından



Qaqarin və onun əvəzləyicisi Titovu seçir. Uçuş 12 aprel 1961-ci ildə Baykonur kosmodromunda reallaşır. Qaqarin Yerin ətrafında 108 dəqiqə dövr etdikdən sonra sağ-salamat yerə qayıdır.

Sonrakı illərdə Qaqarin bütün dünyanı gəzir, görüşlər keçirir, təəssüratlarını bölüşürdü. O yenidən uçmaq istəsə də, dövlət rəhbərliyi imkan vermirdi, onu bir simvol kimi qorumağı qərara almışdılar.

Qaqarin 27 mart 1968-ci ildə "MiG-15" reaktiv döyüş təyyarəsində qəzaya uğrayaraq həlak olmuşdur. O, Moskvada Kreml divarında dəfn olunub.

SSRİ-nin və dünyanın hər yerində onun adı əhəmiyyətli obyektlərə verilib, adibələri qoyulub. Onun adını daşıyan şəhər də var. Azərbaycanda da Qaqarin adlı obyektlər çoxdur.

## "Qaqarin" proyektinə azərbaycanlı möhürü

Böyük fəxrlə qeyd etmək istəyirik ki, Sovet kosmonavtikasının inkişafında bizim xalqın görkəmli nümayəndələrinin də böyük rolu olub.



Böyük ixtiraçı alim Kərim Kərimov Baykonur kosmodromunun əsası qoyulan gündən Kosmik Gəmilər üzrə Dövlət Komissiyasının tərkibinə daxil edilmişdi. Kosmik aparatların yaradılmasında, dünyada ilk dəfə insanın kosmosa göndərilməsində onun da rolu az olmamışdı.

Bəşəriyyətin ilk kosmonavtı Yuri Qaqarinin tarixi uçuşu uğurla başa çatdıqdan sonra Kərim Kərimov SSRİ-nin ən yüksək ordeni-Lenin ordeni ilə təltif olundu.

Sonralar Kərimov Sovet kosmonavtikasının inkişafında misilsiz xidmətlərinə görə, Sovet İttifaqı Qəhrəmanı adına, həmçinin çoxsaylı yüksək dövlət mükafatlarına və ordenlərə layiq görülüb.

O, 1965-ci ildə Kosmik Vasitələr İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. O dövrdə Sovet kosmonavtikasının fəxri sayılan, alimmühəndis zehninin qələbəsi kimi qəbul edilən kosmik aparatlar onun fəal iştirakı və birbaşa rəhbərliyi ilə yaradılmışdır. Onların sırasında yeni nəsil "Soyuz" kosmik gəmiləri, "Salyut" orbital stansiyası, sonradan isə çoxmodullu "Mir" kosmik stansiyasının adlarını çəkmək olar.

## Sovet kosmonavtika elminin əjdahası



1985-ci ildən keçmiş SSRİ Baş Kosmos İdarəsi Elm İstehsalat Birliyinin baş direktoru və və baş konstruktoru təyin olunan, Sialkovski, Korolyov və Qaqarin adına fəxri medallarla təltif edilən, texnika elmlər doktoru, professor Tofiq İsmayılov da Sovet kosmonatikasının inkişafında böyük xidmətlər göstərib.

Akademik T.İsmayılovun fəaliyyətində astro-fizika, elmi-tətbiqi cihazqayırma problemləri sahəsində irəli sürdüyü elmi mülahizələr əhəmiyyətli yer tutmuşdu. 1982-ci ildən ömrünün sonuna qədər Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyinin baş konstruktoru və baş direktoru vəzifəsində çalışmışdır. Onun rəhbərliyi və şəxsi iştirakı ilə hazırlanmış "PS-17 BK" və "Pulsar X-1" rentgen teleskopları böyük uğurla "Salyut-Soyuz-T-11", "Mir" orbital stansiyalarında fəaliyyət göstərmişdi.

"Pulsar X-1" ifrat ulduzunun kəşfində iştirak etmiş, həmçinin "PS-17 BK" (vertolyot variantında) Çernobıl AES rayonunda radiasiya vəziyyətinin müəyyənləşdirilməsində geniş istifadə olunmuşdu.

## İlk azərbaycanlı kosmonavtı niyə tanımırıq?



İlk azərbaycanlı kosmonavtın adı isə Musa Manarovdur. Əslən bakılı olan, sonralar Dağıstanda yaşayan Musa Manarov 1974-cü ildə Moskva Aviasiya İnstitutunun məzunu olmuşdur. 1 dekabr 1978-ci ildə kosmonavtlar dəstəsinə qəbul edilmişdir.

1987-ci ildə Vladimir Titov və Anatoley Levçenko ilə birlikdə "Soyuz TM-4" kosmik gəmisində bortmühəndis kimi özünün ilk uçuşunu başa vurdu. Bir il müddətində ekipaj "Mir" orbital kompleksində işlədi. Buna görə, Manarov Lenin ordeninə və Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bundan başqa, ona 5 ordenlə yanaşı "Beynəlxalq İkor-1989" və ABŞ-ın "Xaroma mükafatı" diplomu da təqdim edildi. Musa Manarov kosmoda 1 ildən artıq yaşamış bir neçə nəfərdən biridir. 7 dəfə açıq kosmoda olubümumi müddət- 34 saat 23 dəqiqə.



Təəssüf ki, Azərbaycanda əksər xalqların həsəd aparacağı elmi nailiyyətlər əldə etmiş böyük şəxsiyyətlərimiz haqda yetərli informasiya yoxdur. Hələ də öz nümayəndəsini kosmosda görmək arzusu ilə alışıb-yanan minlərlə xalq olduğu halda, bizim gənclik belə insanlarımızı tanımır.

Gənc nəsil kosmosa ilk insan göndərən xalqın övladı olduğunun fərqində belə deyil. Amma, "kompyuter müğənnilərini"nin bütün həyatlarını əzbər bilirlər. Dünən mövzu ilə sosial şəbəkədə keçirdiyim qısa sorğuda buna bir daha əmin oldum.

## Azərbaycanın ilk peyki ilə ölkəmizin kosmos erası başladı

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti 2010-cu ilin may ayında yaradılıb. Bu, Qafqazın ilk peyk operatorudur. Azərbaycan Respublikasının ilk peyki- "Azerspace-1" telekommunikasiya peyki 8 fevral 2013-cü ildə Cənubi Amerikadakı Kuru kosmodromundan fəzaya buraxılıb.

2-ci peykimiz- "Azersky" peyki



Hindistanın Kosmik Tədqiqat Təşkilatı tərəfindən idarə olunan "Satish Dhawan Space Centre" kosmodromundan "Polar Satellite Launch Vehicle" (PSLV) daşıyıcı raketi ilə 2014-cü il iyunun 30-da uğurla orbitə çıxarılıb. Yüksək ayırdetməli Azersky peyki dünyanın istənilən nöqtəsinin peyk təsvirini əldə etmək imkanı yaradır. Bu peyk Qarabağda işğalçı Ermənistanın təxribatlarını aşkar etməkvə müharibə dövründə fəaliyyətlərini qeydə almaqla çox böyük xidmət göstərmiş oldu.

2018-ci il sentyabrın 26-da isə 3-cü peykimiz - "Azerspace-2" orbitə çıxarılıb. Bununla da ölkəmiz kosmik dövlətlər siyahısına daxil olub. Qarşıda bizi kosmosda daha böyük nailiyyətlər gözləyir.

***Elçin Bayramlı***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

13 aprel

QARABAĞ AZƏRBAYCANDIR!

## Evdən pul və qızıl-zinət əşyaları oğurlandı



**Şəmkir rayonu ərazisindəki evlərin birindən pul və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən C.Məmmədli saxlanılıb. Şəmkir RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 6-da rayon ərazisindəki evlərin birindən 5400 manat pul və qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Şəmkir şəhər sakini C.Məmmədli saxlanılıb.**

## Avropa çempionatında 10 cüdoçumuz iştirak edəcək

**Aprelin 16-18-də Portuqaliyanın paytaxtı Lissabonda cüdo üzrə Avropa çempionatı keçiriləcək. AZƏRTAC xəbər verir ki, yarışda 10 idmançımızın iştirakı nəzərdə tutulub.**

Kişilər arasında Davud Məmmədsoy, Kəramət Hüseynov (hər ikisi 60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (hər ikisi 66 kq), Murad Fətiyev, Hidayət Heydərov (81 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq) və Uşangi Kokauri (100 kiloqramdan yuxarı) mübarizə aparacaqlar. Qadınların yarışında isə İrina Kindzerska (78 kiloqramdan yuxarı) gücünü sınayacaq.



## DİQQƏTLİ OLUN: Bunu etdiyiniz anda koronavirus təhlükəsi azalar



**Koronavirus bir çox problemlərə yol açır. SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata əsasən, türkiyəli diş həkimi Aykan Onur Atilla diş klinikalarında lazımi tədbirlərin görüldüyünü və insanların koronavirus epidemiyası zamanı ağız sağlamlığına laqeyd yanaşmamaları olduğunu deyib.**

"Diş həkimi olaraq öyrəndiklərimizdən ən başlıcası, özümüzü və xəstələrimizi yolu-xucu xəstəliklərdən qorumaqdır. Hansı tədbirlərin görülməli olduğu məlumdur. "HES" kodu olmadan xəstə götürülmür, hər xəstədən sonra ətraf dezinfeksiya edilir və hava "UVC" ilə təmizlənir, bunlar bir çox klinikada tətbiq olunur. Xəstəmiz maskanı çıxardıqdan sonra rahatlıqla müalicə edilə bilər".

### 30 saniyəlik qarqara ilə virusu dayandıra bilərik

O, bəzi təsirli maddələrlə hazırlanan ağız yuyucusunun koronavirusdan qoruduğunu göstərən işlərin olduğunu qeyd edib: "Koronavirusda proses uzandıqca araşdırmalar artır. 30 saniyə ərzində bəzi aktiv maddələrlə ağız boşluğunu qarqara etsək, koronavirus təhlükəsi azalar. Povidon yod, hidrogen peroksid, klorheksid maddələri ilə ilk müdafiə istəyi olan virusu bədənimizə girmədən dayandıra bilərik".

### Koronavirus dişlərimizə zərər verir

Həkim koronavirus dövründə xəstələrin dişlərin sıxılması şikayəti ilə gəldiklərini deyir: "Koronavirus dövrü ilə birlikdə daha çox xarici sıxılma və çənə oynaq narahatlığı ilə klinikamıza müraciət edirlər. Bu müddətdə koronavirusun yaratdığı stress insanlara dişləri sıxmağa səbəb olub. Bu da qulağın ön hissəsində ağrılar yaradır. Stomatoloq olaraq bunun üçün müxtəlif tədbirləri görürük. Oynaq sağlamlığı vacib şərtdir və çətin bir narahatlıqdır. Çənə oynağına çox ziyan vurur. Oynaqda meydana gələn deformasiya geri dönməz bir şey olduğundan qısa müddətdə tədbir alınmalıdır. Qulaq nahiyəsində ağrı varsa, mütləq həkimə getmək lazımdır".

### Covid-19 keçirənlər dişlərini itirib

Həkim son olaraq da onu qeyd edib ki, Covid-19 xəstələrində diş itkisi ola bilər: "Koronavirus xəstələrində diş itkisi ilə qarşılaşmağa başladıq. İnsanlar ağız baxımından imtina edilər. Davamlı maska istifadəsi nəticəsində, ağız içi yaralar yaranır. Bunun üçün, ağıza qulluq çox vacibdir. Koronavirusu olan və ya sağlamış xəstələrdə müayinələr zamanı xarici itki və infeksiyalarla qarşılaşırıq".

*Ayşən Vəli*

## Piyada faciəvi şəkildə öldü

**Qaradağ rayonunun Qobustan qəsəbəsi ərazisində "Dodge" markalı avtomobillə Mingəçevir şəhər sakini A.Abdullayev vurub.**

Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, aprelin 11-də saat 21 radələrində Qaradağ rayonunun Qobustan qəsəbəsi ərazisində qəsəbə sakini N.Məmmədov idarə etdiyi "Dodge" markalı avtomobillə yolu keçən Mingəçevir şəhər sakini A.Abdullayevi vurub. Nəticədə piyada xəstəxanaya aparılarkən yolda ölüb. Qaradağ RPİ tərəfindən araşdırma aparılır.

## XƏBƏRDARLIQ: Mütləq limon suyu içməlisiniz

Limon yüksək səviyyədə C vitamini ehtiva edən təbii antibiotikdir. Bədənin soyuqdəymə və qrip kimi xəstəliklərə qarşı müqavimətini artırır və immunitet sistemini gücləndirir. Limon bir çox infeksiyalardan, yüksək qan təzyiqindən, anemiyadan və asmadan qoruyur. Limonda olan antioksidanlar şiş və xərçəng inkişafının qarşısını alır. Limonun faydalarını saymaqla bitməz. Qeyd edək ki, mütəxəssislər limon suyunun insan orqanizminə faydalı olduğunu bildirir. Təzə limon suyu, antioksidan və xərçəng əleyhinə maddələri sayəsində müxtəlif xəstəliklərin müalicəsində istifadə edilib. Hər səhər yarım limon suyu içmək insan orqanizmi üçün faydalıdır.

**1. Dərini təmizləyir**

Yalnız su dərinin təmiz qalması üçün toksinləri təmizləməyə kömək edir. Limon əlavə edildikdə C vitamini ilə qırışların azaldılmasına və dərini ləkələrdən uzaqlaşdırmağa kömək edir.

**2. Arıqlamağa kömək edir**

Limon suyu içmək maddələr mübadiləsini gücləndirmək və sürətləndirmək üçün çox təsirli olur. Bundan əlavə limon suyu aclığınızı basaraq arıqlamağınıza kömək edir.

**3. Tənəffüs problemində kömək edir**

Astma və infeksiya kimi tənəffüs probleminiz varsa, limon suyu istehlak etmək sizin üçün çox faydalıdır. Limon suyu antibakterial xüsusiyyətlərə malikdir. İnfeksiyalarda və öskürəkdə təsirli olur.

**4. İmmunitet sistemini artırır**

Limonlu su içməyin bir digər faydası da immunitet sisteminizi gücləndirməyinizə kömək etməsidir. Limondakı kalium qan təzyiqini idarə etməyə kömək edir, beyin və sinir funksiyalarını stimullaşdırır və tərkibindəki C vitamini sayəsində soyuqdəymə üçün faydalıdır.

**5. İltihab və qıcıqlanmanın qarşısını alır**

Bədəniniz iltihablanırsa və bu vəziyyət sizə zərər verirsə, mütləq limon suyu içməlisiniz. Limon suyu iltihabı aradan qaldırır və qıcıqlanan yerləri sakitləşdirir.

**6. Beyin və sinir sisteminiz üçün faydalıdır**

Limon suyunda çox miqdarda kalium olduğu üçün depressiya, narahatlıq və unutqanlığı azaldır. Çox stress keçirdiyiniz zaman C vitamini istehlak etmək yaxşıdır və limonun tərkibində bol C vitamini var.

**7. Enerjinizi artırır**

Yalnız enerjili hiss etmək üçün qəhvə içirsinizsə, limon suyunu da sınayın. Limon suyu həm kofeini azaltmağa, həm də enerjili hiss etməyə kömək edəcəkdir.



*Arzu Elsevərqızı*

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600